

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Dövlətçilik tariximizin, milli-mənəvi dəyərlərimizin, ənənələrimizin təbliği prioritetdir**


5

# "TEKNOFEST"

## yenidən Azərbaycanda!



2

SƏS

№ 163 (6846)

9 sentyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycanın Avropadakı qaz bazarı



6

### İş yerində hansı effektivdir: cəza, yoxsa mükafat?


15

### Un məmulatlarına kimyəvi maddələr əlavə edilir?


14

### SADIQCAN: Qafqazın birinci tarzəni


6

### Əli Kərimli trolluq etməyi özünə peşə edib


11

### Messi daha bir rekorda imza atıb


16

# "TEKNOFEST" yenidən Azərbaycanda!

Bu günlərdə Türkiyənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacır "TEXNOFEST"-in yenidən Azərbaycanda keçirilməsi məsələsindən danışaraq bildirib ki, "TEXNOFEST-in Azərbaycanda təşkili ilə bağlı ən böyük üstünlüyümüz dil birliyidir. O bildirib ki, Türkiyə və Azərbaycan xalqları eyni dildə danışırlar: "Ləhcələrimiz bir az fərqli olsa da, eyni dildə danışırıq. Bir-birimizi rahat başa düşürük. Bu, işimizi çox asanlaşdırır".

M.F.Kacırın sözlərinə görə, başqa ölkələr də TEXNOFEST-in təşkilində maraqlıdırlar. Qeyd edək ki, TEXNOFEST 2022-ci ildə Bakıda təşkil olunub. "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar Bakıda yenidən festival keçirməyə hazır olduqlarını bildirib.

## TARİXİ KÖKLƏRƏ ƏSASLANAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ QARDAŞLIĞI

Azərbaycan-Türkiyə münasibətləri dərin tarixi köklərə və ortaq mədəni dəyərlərə malikdir. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucularının Ulu Öndər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Ümummilli liderimiz Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir", Mustafa Kamal Atatürkün isə "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" kəlamlarına əsaslanan Azərbaycan - Türkiyə əməkdaşlığı, dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmaz olduğunu, Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar.




**RƏCƏB TAYYİB ƏRDOĞAN: "Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi"**

**İLHAM ƏLİYEV: "Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".**

Bu gün də iki ölkə başçısının yürütdükləri siyasət Azərbaycan və Türkiyənin bu həmrəyliyini, qardaşlığını daha da möhkəmləndirib, sarsılmaz edib. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olması bütün dünyaya bəllidir. Vətən müharibəsi zamanı hər kəs buna bir daha əmin oldu. 44d günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbədə mühüm rol oynadı.

Müqəddəs deyim var: "Haqlısansa qorxma, haqq səni qoruyacaq!". Bəli, haqlı olduğumuz üçün haqq, ədalət, ərazi bütövlüyümüz bərpa oldu. Və bu gün qədim tarixlərin sınağından çıxmış, aforizm kimi dillər əzbəri olan "Azərbaycan-Türkiyə - "Bir millət, iki dövlət" həmrəyliyinin nəticəsində Qələbə Zəfrinə nail olduq. Çünki tariximizin ən önəmli anlarında Azərbaycan və Türkiyə bir yerdə olub. 2018-ci ildə Bakının erməni işğalından azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxdılar. Bunun təkrarı 2020-ci 10 dekabr tarixində Zəfər paradında yaşandı. Paradda qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakı Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının daha bir əyani nümunəsi oldu. Bütün dünya bir daha gördü ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə Mustafa Kamal Atatürkün ifadə etdiyi kimi, sevinclı günlərdə də, kədərli günlərdə də daim bir-birinin yanındadır. 2021-ci il 15 İyun - Milli Qurtuluş Günündə Şuşada Azərbaycan-Türkiyə müttəfiqliyini təsdiqləyən "Şuşa Bəyannaməsi" kimi dünyaya səs salan bu sənəd iki qardaş ölkənin münasibətlərinin gələcək inkişafını özündə ehtiva edir. Hər zaman Azərbaycanın, Prezident İlham Əliyevin yanında olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci ildə Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının, 2022-ci ildə isə Şərqi Zəngəzurun dünyaya açılan hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimlərində iştirak etdi. Rəcəb Tayyib Ərdoğan Qarabağımıza ilk səfər edən, həmçinin ilk xarici uçuşu həyata keçirən dövlət başçısıdır. Füzuli Beynəlxalq Hava Limanının açılışından sonra Zəngilana səfər edən iki dost, qardaş ölkə liderləri "Dost Aqropark"ın təməlini qoydular. "Dost Aqropark" Azərbaycan və Türkiyənin birgə həyata keçirəcəyi investisiya layihəsidir. O da məlumdur ki, Füzuli Beynəlxalq Hava Limanı da Azərbaycan və Türkiyə mütəxəssislərinin birgə səyləri nəticəsində tikilib istifadəyə verildi. Türkiyədə dəniz üzərində həyata keçirilən böyük layihə - Rize-Artvin Hava Limanının iki qardaş ölkənin rəhbərləri - Prezident Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyevin iştirakı ilə açılışı Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha dünya birliyinə nümayiş etdirdi. Prezident İlham Əliyevin yeni istifadəyə verilmiş hava limanının açılış mərasiminə dəvət edilməsi təsadüfi deyildi. Bu, iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından xəbər verməklə yanaşı, həm də Türkiyə-Azərbaycan dostluq və qardaşlığının bir-birinə qırılmaz tellərlə bağlı olmasının təsdiqidir. Həmçinin, ötən ilin mayında, həmçinin "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının keçirilməsi Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının növbəti təzahürüdür.

Növbəti qardaşlıq görüşü aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirakı..

Qeyd edək ki, milli texnoloji həmlə konsepsiyası ilə texnologiya sahəsində sürətlə inkişaf edən Türkiyənin altıncı ildir təşkil etdiyi builki "TEKNOFEST" festivalı aprelin 27-də start götürüb. Mayın 1-dək davam edəcək festival Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vəqfi), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı, qardaş ölkənin milli texnoloji sistemində mühüm rol oynayan dövlət, özəl, elm və media qurumlarından ibarət 120-dək qurumun tərəfdaşlığı ilə keçirilir. İldən-ilə genişlənən "TEKNOFEST"də beş gün ərzində texnologiya, elm, aviasiya-pilotaj nümayişləri, sərgilər, konfranslar, texnoloji yarışlar, mükafatlandırma mərasimləri və digər tədbirlər təşkil olunacaq. Festival çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platforma təklif edir. Məhz bunun nəticəsidir ki, bu möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artmaqdadır. Belə ki, "TEKNOFEST"in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çoxdur. Builki "Texnoloji yarışlar"da 102 müxtəlif kateqoriya üzrə 41 yarış keçirilir.

## "TEKNOFEST" - DÜNYANI HEYRƏTLƏNDİRƏN İKİ DOST, QARDAŞ, MÜTTƏFİQ, SARSILMAZ BİRLİKLƏRİ, HƏMRƏYLİKLƏRİ

Bəli, bu birliyin növbəti gücünü Azərbaycan-Türkiyə liderləri Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında bir daha nümayiş etdirdilər. Azərbaycan Prezidenti İlham Əliyev Festivalda çıxışı zamanı bildirdi ki, bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır: "Qardaş ölkədə yenidən olmağımdan çox məmnunam. Sizə Azərbaycan xalqının səmimi salamlarını gətirmişəm. Bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir".

Bəli, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Və ötən il Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

## AZƏRBAYCAN PREZİDENTİ: "Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır"

Dövlətimizin başçısı İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında bildirib ki, Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir: "Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır".

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda onu da vurğulayıb ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir. Və iki il öncə "Şuşa Bəyannaməsi"nin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Prezident İlham Əliyev çıxış zamanı onu da bildirdi ki, atalarımızın, ədcadlarımızın ruhu şaddır, çünki Türkiyə və Azərbaycan bir yerdədir. Və Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu.

Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu: "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi".

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Və Azərbaycan-Türkiyə bütün çətin anlarda xalqının birliyi ilə, iqtidarının səyi ilə həmişə qalib olacaq!!!

Bəli, Azərbaycan Prezidentinin "Bir yumruq" ifadəsi ilə Azərbaycan və Türkiyənin daim birlikdə olduğunu növbəti dəfə bəyan edildi. Və Azərbaycan Prezidenti artıq ənənə halını almış "TEKNOFEST" festivalında iştirak etməklə iki dövlət arasında olan qarşılıqlı həmrəyliyi bütün dünyaya göstərdi. Dövlət başçımızın söylədiyi kimi: "Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!"

**RƏFİQƏ KAMALQIZI**

# Sergey Voronin: “Qərb Ermənistan vasitəsilə Qafqazı partlatmaq istəyir”

## Rusiyalı politoloq: İrəvan Cənubi Qafqazı Qərbə təslim etməyə çalışdığı bir vəziyyətdə Moskva Bakı və Ankara ilə səylərini daha güclü şəkildə əlaqələndirməlidir

***Rusiya Federasiyası Dövlət Dumasında RLDP fraksiyası rəhbərinin müşaviri, politoloq Sergey Voronin ”Moskva-Baku” portalına müsahibəsində Ermənistan-Azərbaycan nizamlanmasında yaranmış gərginliyin səbəbləri haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Bu gün Rusiya-Ermənistan münasibətləri ətrafında formalaşan vəziyyət, İrəvanın atdığı aşkar ardıcıl anti-Rusiya addımları: Roma Əsasnaməsinin ratifikasiyası niyyəti, KTMT-dəki daimi nümayəndəsinin geri çağırılması, öz ərazisində ABŞ-la təlimlərin elan edilməsi, Rusiya rəsmilərinə qarşı açıq-aşkar kobudluq və ABŞ dövlət katibinin oraya gəlməsi ilə eyni vaxtda Paşinyanın arvadının Kiyevə "humanitar" sammit üçün səfəri... Təbii ki, Moskva öz müttəfiqinin bu cür meyllərinə mənfi reaksiya verir...***

- Fikrimcə, son vaxtlar Ermənistandan gördüyümüz hərəkətlər, bəyanatlar, təəssüf ki, bir növ sürpriz yox, nümunədir. Və burada təəccüblü heç nə yoxdur. Bu, Nikol Paşinyan Ermənistanda hakimiyyətə gələndən bəri sistemli şəkildə həyata keçirilən taktikadır. Hətta deyərdim ki, problemlər hələ Paşinyan hakimiyyətə gələnə qədər də göz qabağında idi.

Əgər tarixi perspektivə müraciət etsək, o zaman hələ 2001-ci ildə, yəni 22 il əvvəl Ermənistanda rus məktəblərinin bağlanması və rus dilinin fəal şəkildə sıxışdırılması istiqamətində aktiv proses başlayıb. Bu, rus diplomatiyasının ya anlamadığı, ya da qiymətləndirmədiyi, bəlkə də əhəmiyyət vermədiyi vektor oldu. Nəticə etibarı ilə formalaşan kursa getdikcə qiymət verməmək sonda partladı. O vaxt Moskva sərt reaksiya vermədi. Dəfələrlə İrəvanın dərhal müzakirə mövzusuna çevrilməli olan qeyri-dost addımları olub.

Rusiya üçün Nikol Paşinyanın Ermənistanda hakimiyyətə gəlməsi çox ciddi siqnal olmalı idi. Həm o zaman, həm də sonra Paşinyanın gəldiyi dalğaya dəfələrlə diqqət çəkildi. Əslində, Amerika demokratiyası bunu öz ”süngüləri” ilə təqdim etdi, ABŞ-ın İrəvandakı səfirliyinin əməkdaşlarının sayı dəfələrlə artırıldı. Mənə elə gəlir ki, Ermənistanın bu lideri ilə hansısa yolla razılığa gələcəyimizə inanmaq Rusiyanın səhvi idi. Paşinyan məsələsində biz sadəcə, bəlkə, nəyəsə ümid edirdik. Ancaq əvvəlcədən bunu dərk etməli və ona heç bir güzəştə getməməli idik: bu, Qərbin himayəsi gəlmiş adamdır. Bu, Ermənistanda son onilliklərdə formalaşmış qərbyönlü siyasətin kulminasiya nöqtəsidir.

2 gün əvvəl İrəvan Ermənistanın KTMT-dəki nümayəndəsini geri çağırıb. Biz Roma Əsasnaməsinin ratifikasiyası üçün respublika parlamentinə təqdim edilməsini də görürük. Təxminən 50 il ərzində Qərbin xüsusi xidmət orqanları Beynəlxalq Cinayət Məhkəməsinin orqanını formalaşdırıblar. Müttəfiq ölkə rəhbərliyinin Roma Əsasnaməsini ratifikasiya etmək cəhdi isə kifayət qədər qəribə görünür, nəzərə alsaq ki, bu ilin martında BCM Rusiya prezidentinin cinayət təqibinə başladığını elan edib.

Erməni tərəfi deməyə çalışır ki, 2022-ci ildə, yəni 2023-cü ilin martına qədər Roma Əsasnaməsinin ratifikasiyası məsələsini qaldırıb. Və onun məqsədi Azərbaycanın bir növ ”cinayət təqibi”dir. Amma izahatlar inandırıcı görünmür.

Ermənistan rəhbərliyinin Rusiyaya qarşı düşmənçilik hərəkətləri son 6 ayda daha da güclənib. 2022-ci ilin noyabrında İrəvan sammitə ev sahibliyi etməsinə baxmayaraq, KTMT Kollektiv Təhlükəsizlik Şurasının yekun sənədini imzalamaqdan imtina etdi. Bu ilin yanvarında KTMT təlimlərinin keçirilməsindən imtina edilib. Eyni zamanda, Qərbi Avropa ölkələrinin Qarabağdakı sülhməramlı kontingentə cəlb edilməsinin zəruriliyi ilə bağlı fəal tezislər səslənir. Ermənistan tərəfinin mütəmadi bəyanatlarına görə, guya öz vəzifələrini ”yerinə yetirməyən” Rusiya sülhməramlılarının qarşılığında. Bura Ermənistan ərazisində keçiriləcək erməni-amerikan birgə təlimləri də daxildir. Eləcə də respublikanın NATO-nun digər təlimlərində iştirakı.

Rusiya XİN Ermənistanda hökumət rəsmi-







lərinin ritorikasının ”kobudluq astanasında” olduğunu bildirib. Hesab edirəm ki, bu cür qiymətləndirmələr çoxdan aparılmalı idi. Amma biz o hadisələrin inkişafını və bizə ünvanlanan bəyanatların səsləndirilməsini gözlədik və sonda onlara qeyri-diplomatik dildə cavab verməli olduq.

Sentyabrın 3-də Nikol Paşinyan İtaliyanın ”La Repubblica” qəzetinə müsahibəsində Moskvanın regiondakı davranışından həddindən artıq narazılığını ifadə edib. Əgər onun ”mesajının” mənası açıq şəkildə çatdırılırsa, Ermənistanın baş naziri Rusiyaya qapını göstərib ki, o, Cənubi Qafqazı tərk etməlidir. Bu cür mesajların məqbul olması barədə heç nə demək olmaz: Cənubi Qafqaz Rusiya üçün tarixi və geosiyasi baxımdan son dərəcə vacib regiondur. Və Rusiya sülhməramlılarının Qarabağda yerinə yetirdiyi funksiyalar son dərəcə vacibdir.

Ermənistanın baş nazirinin xanımı Anna Akopyanın Kiyevdə keçirilən qondarma ”humanitar” sammitə səfəri, deyə bilərik ki, anti-Rusiya aksiyalarında iştirak etməsi, təbii ki, İrəvandan Rusiyaya siqnaldır. Xüsusən ABŞ dövlət katibinin eyni vaxtda Kiyevdə olmasını nəzərə aldıqda. Diplomatiyada heç bir təsadüf yoxdur. Və Paşinyanın həyat yoldaşının Kiyevə belə səfəri, əlbəttə ki, Moskvanın üzünə sillədir. Bu, İrəvandan Rusiya ilə Qərbin qarşıdurması məsələsində hansı mövqedən çıxış etməsi barədə çox düşünməyəcəyini nümayiş etdirən siqnal səfəridir.

Nümunə kimi göstərilən İrəvanın hərəkətləri və bəyanatları bir zəncirin halqalarıdır. Belə qənaətə gəlmək olar ki, bu gün Ermənistan rəhbərliyinin xətti tamamilə anti-Rusiyadır və belə şeylərə çox sərt reaksiya vermək lazımdır. Amma problem ondadır ki, indiyədək bizim tərəfimizdən bu məqam əldən verilib.

Biz Rusiyada Qarabağ münaqişəsinin 30 ili ərzində dostları necə seçməklə bağlı heç bir dərin nəticəyə gəlməmişik. Buna hazır olan və qarşılıqlı faydalı şəffaf münasibətlərə öz konstruktiv münasibətini sözlə deyil, əməli ilə (bunu vurğulamaq vacibdir) sübut etməyə hazır olan dövlətlərlə həqiqətən dostluq münasibətləri qurmaq lazımdır.

Nümunə olaraq Azərbaycanla münasibətlərimizi götürək. Bu həm də Azərbaycan rəhbərliyinin öz ölkəsində faktiki olaraq ikinci dövlət dili statusuna malik olan rus dilinə münasibətini, Azərbaycan əhalisinin Rusiyaya qarşı necə mehriban münasibətini nümayiş etdirir. Prezident Putinlə Prezident Əliyev arasında çox yaxşı şəxsi, dostluq, etimad münasibətləri faktı hamıya məlumdur. Ona görə də hesab edirəm ki, tərəfdaşlar və dostlar seçərkən, xüsusən də bugünkü geosiyasi şəraitdə biz çox diqqətli şəkildə yanaşmalıyıq. Bu o demək deyil ki, bəzilərinə düşmən, digərlərinə isə yalnız dost deməliyik. Amma biz Cənubi Qafqaz ölkələrinin atdığı praqmatik və real addımlardan çıxış etməliyik. Əgər bu addımlar səmimi şəkildə qeyri-dostdursa, o zaman bu problemlərin qarşısını almaq və vaxtında və çox fəal şəkildə müdaxilə etmək lazımdır. Əks halda, vəziyyət, gördüyümüz kimi, indi İrəvanla münasibətlərimizdə baş verdiyi kimi, nəzarətdən çıxmağa başlayır.

***- Bunun fonunda biz Qarabağda vəziyyətin mürəkkəbləşməsini görürük. Azərbaycanla Ermənistan arasında vaxtaşırı gərginləşmələr, burada Qərb oyunçularının cəlb edilməsi ilə Laçın yolunda vəziyyətin açıq-aşkar siyasiləşdirilməsi... Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanat imzalamasından 3 ilə yaxın vaxt keçir və bəyanatdakı razılaşmalar həyata keçirilmir.***

- Qarabağ çoxdankı ziddiyyətlər meydanıdır. Və bu məsələdə kifayət qədər oyunçu var. Aydındır ki, regionda ilk növbədə Azərbaycanın, Ermənistanın və Rusiyanın maraqları var. Həm də Türkiyə və İranın maraqları. Qərbi Avropa ölkələri də burada öz maraqlarını təmin etməyə çalışırlar, xüsusən də cənab Makron regionda çox fəaldır. Və təbii ki, öz milli maraqlarının bütün dünyanı əhatə etdiyini heç vaxt gizlətməyən ABŞ.

Qarabağ probleminin dayandırılması Azərbaycan, Ermənistan və Rusiya üçün obyektiv əhəmiyyətli olardı. Hətta ermənilərin bugünkü davranışını nəzərə alsaq belə. Maraqlıdır ki, biz vaxtaşırı Qərbdəki erməni lobbisinin bir çox nümayəndələrinin təəccübünə və narazılığına səbəb olaraq, cənab Paşinyanın Qarabağın Azərbaycan ərazisi kimi tanınması ilə bağlı bəyanatlarını eşidirik.

Təbii ki, sakitcə qaynayan münaqişənin mövcudluğu ilk növbədə bizim xaricdəki partnyorlarımız üçün sərfəlidir. Bizim kuklaçılar həmişə olduğu kimi xaricdə yerləşirlər. Onların məqsədi Rusiyadır, onu münaqişə ocaqları ilə əhatə etmək planı var. Qarabağ isə, onların fikrincə, inanılmaz dərəcədə münaqişəyə meyilli bir bölgə olduğunu nəzərə alsaq, ”partladıla” bilər. Və onu partlatsalar, çox da görünməyəcək. Axı Qərb eyham edir ki, son nəticədə vəziyyət Şimali Qafqaza da təsir edə bilər.

***- Yəni indi ikinci cəbhə açmaq cəhdləri buna deyilir?***

- Bəli, Gürcüstanla bunu etməyə çalışdılar. Lakin Tbilisidə təəccüblü şəkildə bu cəhdi qəfil dayandırmaq üçün kifayət qədər siyasi təmkin və zəka var idi.

***- Ermənistan vasitəsilə Qərbin regionda varlığı getdikcə güclənəcəkmi?***

- Şübhəsiz ki. Bir daha qeyd edim ki, burada yeni heç nə yoxdur. Bir neçə il əvvəl Paşinyanın hakimiyyətə gəlişi Ermənistanın Rusiyaya münasibətdə mövqeyinin necə formalaşacağını və kollektiv Qərbin simasında kimin Rusiyaya təsir edəcəyinin xarakterik təfərrüatı idi.

***- Hansı ssenarilər ola bilər?***

- Bu gün haqqında danışdığımız bütün nüanslar arasında Ermənistanın Rusiyanın ”çətiri” altından çıxıb kollektiv Qərbin ”çətirini” seçməsi çox aydın şəkildə başa düşülür. Təbii ki, bu təhlükəli tendensiyadır. Eyni şey Kiyevdə də kifayət qədər uzun müddət var idi. Sonda indi Ukraynada yaranmış vəziyyətlə nəticələndi.

İstərdim ki, Rusiya-Ermənistan münasibətləri, ümumiyyətlə regiondakı saatlı bomba partlamasın. Amma bu minanın basdırıldığı göz qabağındadır. Və bu, Rusiya üçün xoş sürpriz deyil.

Paşinyan Vaşinqtondan gələn göstərişlərə əməl edir. Bu tamamilə başa düşüləndir. Ona deyildiyi kimi edəcək. Son günlərdə inanılmaz dərəcədə intensivləşməsini nəzərə alsaq, görərik ki, ona fəallığın artırılması əmri verilib. Bu o deməkdir ki, yaxın gələcəkdə nə isə baş verəcək və bunun Ermənistan-Rusiya münasibətləri üçün müsbət nəticə verəcəyi ehtimalı azdır.

Bu çətin vəziyyətdə Rusiya regionu tərk edə bilməz. Mən Qərbin hərbi qüvvələrini bölgəyə sürükləmək cəhdlərinin artmasından danışıram. Əgər Rusiya sülhməramlıları getsə, o zaman biz cənab Paşinyanın Rusiyanın Cənubi Qafqazdan çıxması istəyini yerinə yetirmiş olacağıq. Rusiya Qafqazdakı vəziyyətə nəzarət etməyə bilməz. Bu, təkcə Azərbaycan və Ermənistanla münasibətlər məsələsi deyil, həm də milli təhlükəsizliyimizlə bağlı məsələdir. Cənubi Qafqazda kollektiv təhlükəsizliyi Rusiya, Azərbaycan və Ermənistanbirgə həyata keçirməlidir.

Biz Qərb sülhməramlılarının müxtəlif regionlarda mövcudluğunun necə başa çatdığını yaxşı bilirik. Qərb sülhməramlılarının ”humanitar” müdaxiləsi zamanı nələr baş verdiyini görmüşük.

Bu çətin vəziyyətdə biz ilk növbədə Bakı ilə daha da yaxınlaşmağa çalışmalıyıq, çünki İrəvanla münasibətlər gözümüzün qabağında əriyir.

Səylərinin çox konstruktiv ola biləcəyi və regionun problemləri onun üçün son dərəcə əhəmiyyətli olan ölkələrdən biri də Türkiyədir. Müasir dünyada Putin kimi müstəqil liderlər çox deyil, onların arasında Ərdoğan da var, hansı ki, daxili və xarici siyasət yeritdiyini özü müəyyən edən liderdir. Yəni İrəvan Cənubi Qafqazı Qərbə təhvil verməyə çalışdığı bir vaxtda Moskva Bakı və Ankara ilə səylərini əlaqələndirməlidir.

***Tərcümə - Elçin Bayramlı***

# Fransanın diktatorlarla sıx əlaqələri və... - İFŞA

***BMT-nin baş katibi Antonio Quterreş avqustun 30-da Qabon prezidenti Əli Bonqonu üsyançıların xaricə gedə biləcəyini deməsindən sonra onu devirən zərbəçilərə münasibət bildirib. Sub-Sahara Afrikası son iki ildə yeddi üsyanla üzləşib. Neftlə zəngin Qabon, qitənin bu hissəsində qarışıqlıq qurşağı yaradan Niger, Burkina Faso, Çad, Qvineya, Mali və Sudandan daha stabil görünürdü. Amma Nigerə münasibət başqadır. Britaniya, Fransa, Almaniya və Aİ qərbyönlü prezident Məhəmməd Bazumun devrilməsindən sonra ona yardımı dayandırdıqlarını elan ediblər. Maraqlıdır ki, iğtişaşlar əsasən Fransanın keçmiş müstəmləkələrini əhatə edib.***

Qabonda çevrilişin təşəbbüskarları əvvəlcə sərhədlərin bağlandığını, dövlət qurumlarını ləğv edildiyini və prezidenti ev dustağı etdiklərini elan etdilər. Quterreşin nümayəndəsi bildirib ki, BMT gələcəkdə Qabonla yenidən əməkdaşlığa, konstitusiya idarəçiliyinə gedəndə yardım göstərməyə hazırdır. Puşistlərin lideri keçid dövrünün lideri elan edilib.

Niger başqa məsələdir. "Washington Post"un yazdığına görə, iyulun 26-da prezident Bazumun devrilməsi ölkədə islam ekstremizminin artması və Rusiyanın təsirinin artması ilə müşayiət olunub. Bir sözlə, bu, Moskvanın əli olmadan baş verə bilməzdi. Bundan əlavə, əsas regional blok olan Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi (ECOWAS) sülh danışıqlarının da mümkün olmasına baxmayaraq, ölkəyə hərbi müdaxilə etməyə hazır olduğunu bəyan edib. Nigerdə, eləcə də Burkina Faso və Malidə çevriliş tə-



rəfdarları küçələrə çıxaraq Rusiya bayraqları dalğalandırıblar. Çevrilişə xalqın dəstəyi və üsyan təşkilatçılarının siyasətlərinə şübhə indiyədək Qərbin müdaxiləsinə və Bazumun hakimiyyətini bərpa etməsinə mane olub.

Lakin iddialar olduqca yüksəkdir: Niger Fransaya və digər Aİ üzvlərinə uran verir. Fransa öz vətəndaşlarını təxliyə edib, lakin çevriliş təşkilatçılarının səfirini və hərbi bazada olan əsgərlərini geri çağırmaq üçün ultimatumuna əməl etməkdən imtina edib. Niger həm də ölkədə qoşun yerləşdirən və hərbi bazadan pilotsuz təyyarələr uçuran ABŞ-ın əsas müttəfiqi idi.

Qaranlıq qitədəki hadisələri təhlil edən Financial Times yazır ki, Afrika rejimləri həssasdır. İddialı generallar isə çevriliş cəhdlərinə qarşı real müqavimət gözləmirlər. Beləliklə, sual yaranır: növbəti çevriliş harada olacaq? Məsələn, Pol Biya 40 ildir Kamerunun prezidentidir. 90 yaşlı Biya indi vaxtını Cenevrədə göl kənarındakı lüks oteldə keçirir. O, oğlunu öz yerinə qoymaq istəyir. Müxalifətçilər müntəzəm olaraq oteldə piket keçirirlər.

Qərb ekspertlərinin fikrincə, qazandan qaynar suyun hara sıçrayacağını təxmin etmək mümkün deyil. Konqo Respublikasında (Brazzavil) prezident Denis Sassou Nguessou 1997-ci ildə hakimiyyəti ələ keçirdi. Ekvatorial Qvineya lideri Teodoro Obianq dünyada prezident kimi ən uzun müddət qalma rekorduna sahibdir. O, əmisini qapıdan çölə atdıqdan sonra 44 ildir ki, padşahlıq edir. Toqoda isə bu vəzifəni atasından miras alan Faure Gnassingbe 2005-ci ildən idarə edir.

Mətbuata açıqlamasında akademik Aleksey Vasilyev qeyd edib: "Böhran keçmiş müstəmləkə imperiyası olan Fransanı vurdu. Fransızlar və müxtəlif iyrənc şəxslər birlikdə bu ölkələri talan etdilər. Bəzi rejimlər digərlə-



rini əvəz etdi. Fransanın bu diktatorlarla sıx əlaqələri var idi".

Afrikalı Boris Pilyatskin də bildirib ki, çevrilişlər əsasən Fransanın təsir dairəsində baş verib. Həmişə sinxronlaşdırılmır, lakin Qərbi Afrikada onlar arasında əlaqə yaratmaq çətin deyil. Lakin bunların eyni tipli hadisələr olduğunu söyləmək olmaz. Məsələn, Nigerdə minlərlə nümayişçi hərbçiləri salamlayıb. Orada onlar əhalinin dəstəyindən həzz alırlar. Qabonda isə yuxarıda çevriliş var. Lakin Afrikanın hər yerində insanların yanlış idarəetmə və rüşvətxorluğa qarşı qəzəbləri fonunda iğtişaşlar baş verir. Bu nümunəni də müşahidə etmək olar. Prezidentlər beş il müddətinə seçilir, lakin onlara təkrar-təkrar seçilmək imkanı verilir. Bu virus son dərəcə yoluxucudur. Bu, regiondakı güc balansına da təsir edir".

Bu arada məlum olub ki, Nigerdə hakimiyyətə gələn puşistlər Fransaya hərbi kontingentin çıxarılması üçün dəqiq tarix təyin etməyi təklif ediblər. Fransa mətbuatının yazdığına görə, Paris öz əsgərlərini Afrika ölkə-



sindən çıxarmağın əleyhinə deyil. Artıq onların Nigerdə olması üçün heç bir hüquqi əsas yoxdur və fransız əsgərlərinin getməsi ilə Qərb buradakı hərbi mövcudluğunu itirməyəcək - Amerika hərbçiləri orada qalacaq. Üstəlik, yeni hakimiyyətlər Fransanın ölkədəki iqtisadi mövqeyinə də iddialı görünmürlər. Onların əvvəlki açıqlamalarına baxmayaraq, Nigerdə fransız biznesləri tərəfindən həyata keçirilən uran hasilatı hələ də davam edir.

Avqustun 3-də, çevrilişdən təxminən bir həftə sonra çevrilişi başında duran general Amadu Abdraman Fransa ilə müdafiə müqaviləsini ləğv etdiyini elan edib. Onun əsasında ölkədə Nigerin bu keçmiş metropolunun min yarım əsgəri var. Onların qalması bir məqsədlə bağlıdır: Niger ordusuna cihadçılarla mübarizədə kömək etmək. General Amadu ölkəsinin qoşunlarının artıq bu köməyə ehtiyacı olmadığını bildirib. Fransaya kontingentini çıxarmaq üçün bir ay vaxt verilib. Bu müddət sentyabrın 3-də başa çatdı, lakin



Fransa ilə hələlik yalnız geri çəkilmə şərtləri ilə bağlı danışıqlar aparılır.

Əl-Ərəbiyyə telekanalının məlumatına görə, Fransa tərəfindəki üsyançılarla birbaşa əlaqə saxlayan diplomatlar deyil, hərbçilərdir. Bunu, xüsusən də Fransanın Mali və Seneqaldakı keçmiş səfiri Nikolas Normand telekanala müsahibəsində deyib. "Monde" qəzeti yazıb ki, ümumiyyətlə, danışıqlar gedir, lakin üsyançılarla deyil, Niger ordusunun devrilmiş prezident Məhəmməd Bazuma sadiq qalan hissəsi ilə.

Fransız kontingentinin əksəriyyəti Niamey yaxınlığındakı bazada yerləşir, onun ətrafında müstəmləkəçi dövlətin qoşunlarının çıxarılmasını tələb edən yerli sakinlərin demək olar ki, hər gün mitinqləri keçirilir. Nümayişçilər bütün problemlərinə görə Fransanı günahlandırırlar. 1,1 min ABŞ əsgərinin yerləşdiyi Amerika hərbi bazalarında oxşar irimiqyaslı aksiyaların keçirilməməsi xarakterikdir. Onların gəldiyi nəticə, görünür, hətta müzakirə olunmur.

Fransanın xarici işlər naziri Ketrin Kolonna "Monde" nəşrinə müsahibəsində bildirib ki, Paris hələ də Nigerin qanuni hakimiyyəti kimi yalnız Məhəmməd Bazumu və onun hökumətini tanıyır. Lakin bu o demək deyil ki, onun səlahiyyətlərini bərpa etmək üçün fransız qoşunları qalacaq. Tam əksinə. Fransa Xarici İşlər Nazirliyinin rəhbəri qoşunların çıxarılmasının məhz çevriliş səbəbindən baş verəcəyinə eyham vurub. Fransız əsgərlərindən ölkə qoşunları ilə birgə antiterror əməliyyatı keçirmək üçün Bazumun özü gəlmələrini istəyib. O vurğulayıb ki, indi belə əməliyyatlar mümkün deyil.

Kontingentin ehtimal olunan yeni yeri qonşu Çad olacaq. Təxminən min fransız əsgəri artıq oradadır və təbii ki, orada da əgər xahiş olunmasa qalmaq niyyətində deyillər. Hazırda Fransa və Çad sentyabrın 5-də Faya-Larqeau şəhərindəki bazada baş vermiş cinayəti araşdırır. Baş verənlərin təfərrüatları tam aydın deyil. Fransız diplomatik mənbə yerli mətbuata bildirib ki, Çad ordusunun əsgəri fransız həkimə hücum edərək onu bıçaqlayıb. Buna cavab olaraq atəş açılıb. Əsgər ölüb. Artıq ikinci gündür ki, bazanın yaxınlığında xarici hərbçilərin çıxması tələbi ilə aksiyalar keçirən yerli sakinlər, əksinə, hadisənin günahkarının fransız olduğuna əmindirlər. Çad hakimiyyəti, reaksiyalarına görə, Fransa ilə mübahisə etmək niyyətində deyil. Bununla belə, qonşu ölkənin yeni sahiblərinə də eyni sözləri demək olar.

Nigerin baş naziri Əli Mahamane Lamin Zein hərbi kontingentin "tez" çıxarılması ilə bağlı fransızlarla danışıqların aparıldığını söyləyib. Amma o, həmçinin qeyd edib ki, yeni hakimiyyət Parislə münasibətləri kəsməyə cəhd etməyəcək və onunla əməkdaşlığa hazırdır. 2003-2010-cu illərdə ölkənin maliyyə naziri olmuş Zeyni ümumiyyətlə hərbi rejimin mülki "danışan başı" adlandırmaq olar, bununla da üsyançıların sərt danışıq mətləblərini yumşaldaraq, mövcud hakimiyyətə daha sivil və legitimlik görüntüsü verir.

Qeyd edək ki,Fransaya uran idxalının beşdə biri Nigerdən gəlirdi. Yalnız Qazaxıstanda daha çox - 27%. Bu postsovet ölkəsi uran tədarükü üzrə dünya lideridir (bütün dünya ixracının 43%-i). Siyahıda onu Kanada (15%), Namibiya (11%) və Avstraliya (8%) izləyir.

Qoşunların çıxarılması ilə bağlı danışıqlar Qərbin getdikcə yumşalacağını göstərə bilər. Prinsipcə, Fransa iğtişaşçıları devirəcək qüvvələrə kömək etməyə hazır olduğunu iddia etsə də, bu prosesdə birbaşa iştirakdan çəkinir. Beləliklə, Fransanın Afrika hegemonluğuna artıq son qoyulduğunu iddia etmək olar.

**V.SALAH**

# Dövlətçilik tariximizin, milli-mənəvi dəyərlərimizin, ənənələrimizin təbliği prioritetdir



**Xalqımızın dövlətçilik tarixi çox qədim zamanlardan başlayır və bizim zəngin dövlətçilik ənənələrimiz var. Beş min ildən də çox tarixi, yaşı olan dövlətçilik ənənələrimiz bizim mədəniyyətimizin, ədəbiyyatımızın, elm və təhsilimizin inkişafına, tərəqqisinə təsirsiz ötüşməyib, böyük töhfələr verib. Deməli, bu ənənələrin qorunması, eləcə də təbliği günümüzün ən aktual məsələlərindən biri hesab olunur və hər zaman prioritet sayılır.**

Sirr deyil ki, dövlətin və xalqın var olması üçün ilk növbədə, dövlətçilik ənənələrinin, elm və mədəniyyətinin, eləcə də milli dəyərlərinin qorunması gərəkir. Azərbaycanın dövlətçilik tarixinin, elm və mədəniyyətinin hazırda uğurla təbliğ edilməsi hamımızı sevindirir və milli-mənəvi dəyərlərimizə dövlət səviyyəsində yüksək qiymət verilməsi hər kəsi daha da ruhlandırır. "Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duyur və sözsüz ki, bununla fəxr edir", - deyən Ulu Öndər Heydər Əliyev dövlətçilik tariximizə, elm-mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə necə bağlılığımızı və eləcə də yüksək qiymət verildiyini diqqətə çatdırıb. Həqiqətən də, ölkəmizdə milli adət-ənənələr mühafizə olunur, qorunur və başda elə dövlətçilik ənənəsi olmaqla, bütün ənənələrimizə daim hörmət və ehtiram göstərilir.

Tariximizin müxtəlif mərhələləri, ələlxüsus da müstəqilliyimizin yenidən bərpa edilməsindən bu günə qədər olan dövr xalqımız üçün unudulan deyil və bu istiqamətdə maarifləndirmə işi hələ də aparılır. Məhz elə müstəqillik dövründə milli-mənəvi dəyərlərin qorunmasına söykənən maarifləndirmə və təbliğat işi də əsasən 44 günlük Vətən müharibəsində öz bəhrəsini vermiş oldu. Heç zaman Qarabağda olmayan, həmin əraziləri yalnız mətbuatdan və dərsliklərdən tanıyan yeni nəslin Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ən qısa zamanda Zəfərə imza atması da məhz elə mənəvi dəyərlərin təbliği, milli ruhda, dövlətçilik, azərbaycançılıq ruhunda tərbiyənin məntiqi nəticəsi idi.

İşğal altında olan torpaqlarımız uğrunda döyüşən, canlarını, qanlarını əsirgəməyənlər dövlətçilik tariximizə, dəyərlərimizə, ənənələrimizə necə bağlı olduqlarını bütün dünyaya sübut etdilər. Vətən torpağının hər qarışı uğrunda canını fəda edənlər göstərdilər ki, vətəni sevmək, dövlətçilik tarixinə, milli-mənəvi dəyərlərə hörmətlə yanaşmaq necə olur. Bütün dünya ictimaiyyəti bir daha əmin oldu ki, Azərbaycan xalqı öz dövlətçilik tarixinə, milli-mənəvi dəyərlərinə, özünə məxsus olana böyük sayqı ilə yanaşır və hər zaman da onların keşiyindədir. Azərbaycan əsgərinin döyüş meydanında necə böyük ruh yüksəkliyi ilə döyüşməsi, vətən uğrunda, vətən torpağını işğaldan azad etmək uğrunda hansı həvəslə vuruşması bütün dünya ictimaiyyətinin diqqətindən yayınmayıb və yaddaşlardan da silinən deyil. Vətən müharibəsi və bu müharibədə əsgərlərimiz tərəfindən göstərilən şücaət bir daha təsdiq etdi ki, həmin torpaqların sahibi o torpaqları qoyub qaçanlar yox, məhz həmin torpaqların hər qarışı uğrunda canından keçməyə hazır olanlardır və onlar Azərbaycanın dövlətçilik tarixinin, milli-mənəvi dəyərlərinin, bizə məxsus olanın keşiyində duran, onu qoruyan, dəyər verən azərbaycanlılardır.

Güclü dövlətçilik quruculuğu ilə adət-ənənələr, eləcə də həmin adət-ənənələrin formalaşdırdığı milli dəyərlər sistemi arasında qırılmaz bağlılıq, vəhdət var. Diqqətə çatdıraq ki, əxlaqi, milli vətənpərvərlik baxımından cəmiyyəti düzgün istiqamətə yönəldən elə ilk növbədə, adət və ənənələrdir. Ona görə də cəsarətlə deyə bilərik ki, hər bir dövlətin gücü məhz həmin dəyərlərin cəmiyyəti saf təməllər üzərində tərbiyə etməsindən birbaşa asılıdır və qırılmaz bağlılıq, vəhdət də elə buradan ortaya çıxır, təzahür edir. Heç şübhəsiz ki, güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayan məhz adət-ənənələrdir, hansı ki, insan münasibətlərinin tənzimləyici və istiqamətverici funksiyasını yerinə yetirir.

Hər bir millətin, xalqın mənəvi, mədəni siması milli adət-ənənələri və onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hesab olunur və bu heç də təsadüfi deyil. Özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verən və yenə də töhfələr verməkdə davam edən Azərbaycan xalqının dəyərlərinə hörmətlə yanaşılması da bu baxımdan əbəs yerə deyil. "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir", deyən və adət-ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolu hər zaman yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev bununla bəyan edib ki, xalqımız dünyanın ən qədim tarixə malik, ən qədim xalqlarındandır.

Dövlətimiz qarşısında ən zəruri vəzifələrdən birinin məhz gənc nəslin dövlətimiz qarşısında ən zəruri vəzifələrdən biri olduğunu hər zaman diqqətə çatdıran Ulu Öndər Heydər Əliyevin öz xalqının, Azərbaycan xalqının mədəni irsinə, mənəvi dəyərlər sisteminə hər zaman qayğı ilə yanaşması da təsadüfi deyildi. Bu ondan irəli gəlirdi ki, yetişməkdə olan gənc nəsildə böyük təsir gücünə malik olan adət-ənənələrin məhz həmin gənc nəslin vətən, millət, xalq sevgisi ruhunda tərbiyə olunmasında mühüm rol oynadığı danılmazdır. Heç şübhəsiz ki, adət-ənənələr mənəvi baxımdan nə qədər zəngin olarsa, gənclər də o qədər cəmiyyət üçün xeyirli şəxslər kimi yetişər, formalaşar, dövlətin daha da güclü olmasına öz töhfələrini verərlər və bu məqam dahi rəhbərin diqqətindən yayına bilməzdi, heç yayınmamışdı da.

Gənc nəslin saf əxlaqi ruhda tərbiyələndirilməsinin dövlətimiz qarşısında ən zəruri vəzifələrdən biri olduğunu vurğulayan Ümummilli Lider Heydər Əliyev mənsub olduğu xalqın, Azərbaycan xalqının tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə hər zaman qayğı ilə yanaşıb. Görkəmli dövlət xadimi, dünyaca məşhur olan Ulu Öndər gənclərin mənəvi baxımdan zəngin olmasına xüsusi diqqət göstərib və bu ənənə indi də onun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Dövlətçilik tarixinə, milli-mənəvi dəyərlərə sayqı göstərən gənclərin cəmiyyət üçün daha xeyirli şəxs kimi yetişdiyi, dövlətin daha da güclü olmasına öz töhfəsini verəcəyi bizdə zərrə qədər şübhə doğurmur və 44 günlük müharibədə biz bunun əyani şahidi olduq. Elə bu baxımdan da ölkəmizdə dövlətçilik tariximizin, milli-mənəvi dəyərlərimizin, ənənələrimizin təbliği prioritet hesab olunur.

***İnam Hacıyev***

# YAP Gənclər Birliyinin iclası keçirilib



**Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin növbəti iclası keçirilib. İclasda YAP Gənclər Birliyinin 2023-cü ilin birinci yarımili üzrə fəaliyyəti qiymətləndirilib və qarşıdakı dövrdə həyata keçiriləcək tədbirlər müzakirə edilib.**

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov cari ilin ötən dövrü ərzində görülən işlər barədə danışıb. Qeyd edib ki, mart ayından etibarən ali təhsil müəssisələrində "YENİ Klub"ların təsis toplantıları keçirilib və bu proses qarşıdakı aylar ərzində digər ali təhsil müəssisələrində də davam etdiriləcək. 4-7 avqust tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda hakim Monqolustan Xalq Partiyasının ev sahibliyi ilə keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Gənclər Qolunun VI və Qadınlar Qolunun VII iclaslarında YAP Gənclər Birliyinin təmsil olunduğunu diqqətə çatdıran B.İslamov bu səfərin əlaqələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Növbəti aylar ərzində həyata keçirilməsi planlaşdırılan layihələr barədə məlumat verən B.İslamov bu istiqamətdə artıq hazırlıq işlərinə başlandığını diqqətə çatdırıb. O, "Heydər Əliyev ili" çərçivəsində tədbirlərin davam etdiriləcəyini bildirib.

Sonra YAP Gənclər Birliyinin qarşıdakı dövrdə həyata keçirəcəyi fəaliyyətə dair müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

# SADIQCAN:

## Qafqazın birinci tarzəni

Artıq 3-cü ildir ki, görkəmli tarzən Mirzə Sadıq Əsəd oğlu Sadıqcanın doğum gününü doğulduğu Şuşanın azadlığı ilə, ümumilikdə Zəfərli Vətənimizdə anırıq. Qarabağ Zəfəri dağından-daşından, çəmənindən-gülündən, havasından-suyundan, tarixi abidəsindən-yerlərindən, məscidindən-pirindən tutmuş bu yerlərin böyük şəxsiyyətlərinə kimi, ilhamını Şuşanın başı dumanlı dağlarından, yaşıl ətəyindən, allı-güllü çəmənindən, Ağdamın bəyaz atlılarından, Füzulinin adaşı Füzulidən, Xudəfərinin Araza sevdasından, Suqovuşanda görüşən sulardan, Laçının dolanbaclarından, Kəlbəcərin şiş papaqlı dağlarından, Zəngilanın bir-birinə çiyin verən meşələrindən alan sənət adamlarına qədər hər bir canlıya ikinci həyat verir.

Qarabağın 30 illik sükutundan sonra buradan Üzeyirin ürəyimizlə qoşa döyünən melodiyaları, Xan Şuşinskinin, Bülbülün, Cabbar Qaryağdıoğlunun, Hacı Hüsünün, Məcid Behbudovun, İslam Abdullayevin əsrarəngiz səsləri, Vaqifin, Natəvanın qəlbləri riqqətə gətirən misraları eşidilir. Sıxır sinəsinə Sarı Aşıq sazını, "Zəfər"dən deyir. Eləcə də Mirzə Sadığın sinəsinə basdığı tarının müşayiətində möcüzəli xalq mahnıları, muğamlar, eləcə də "Zəfər" muğamı azad yurdlarımıza yeni həyat bəxş edir...

### Bu dünyadan bir Sadıqcan keçdi...

Mənbələrdən məlim olur ki, XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalq tərəfindən böyük sevgi ilə sevilən və qiymətləndirilən xanəndə və sazəndələrə "can" kimi yüksək ad və yaxud təxəllüs verilərmiş. Belə bir əzizləmə Mirzə Sadığa da müyəssər olmuşdur. Həm tarın texniki vəziyyətini təkmilləşdirdiyinə, həm də tarda və kamançada gözəl ifasına görə Sadıqcan öz dövründə "Qafqazın birinci tarzəni" kimi tanınırmış.

Sadıqcan həm kamançada, həm də tarda o dövrün məşhur xanəndələrini müşayiət edərdi. Artıq onun sorağı Qarabağdan kənara çıxmışdı. Cənubi Qafqazda, Şərq dünyasında Sadıqcanı yaxşı tanıyırdılar. Onu tez-tez öz məclislərinə, toylarına, xeyir işlərinə dəvət edərdilər. Sadıqcanın adı Cabbar Qaryağdıoğlu kimi xanəndə ilə yanaşı çəkilirdi. Bəstəkar Əfrasiyab Bədəlbəyli Sadıqcanın bəzən sağ əlini (mizrab olmadan) istifadə etmədən, sol əlinin barmaqları ilə fərqli səslər yaratmasını, simlərə xüsusi bir şəkildə vuraraq və ya basaraq müxtəlif səslərin uzanması üçün pərdələri çəkməsini söyləyirdi. Bu fikri təsdiqləyən daha bir fakt da var. Tarzən Bəhram Mansurovun atası olan Məşədi Süleyman bəy Mansurov Sadıqcanı belə xatırlayırdı: Onun tarla möhtəşəm ifası, insanlar üzərində bir növ anlaşılmaz gücə malik idi. O, mizrab olmadan, virtuoz kimi tarı çənəsinə qaldırıb, bəzən isə tarı boynunu əyib çalırdı. O, həm də bəzən aşıqlar kimi, tarı başının üzərinə qaldırırdı. Buna bənzər digər faktı isə musiqi tədqiqatçısı Əbdülhəmid Babayev söyləyirdi: Mən ilk dəfə Sadıqcanı 1897-ci ildə Bakıda - İçərişəhərdə Hüseynbəy Ağayevin toyunda gördüm. Cəmi Qafqazda belə gözəl tar çalan olmayıb. Sadığın çox gözəl camalı var idi. Ucaboy, enlikürək və cüssəli idi. O, məclisə çox ədəb və ərkanla girərdi. Camaat ona sonsuz hörmət bəslərdi. Onun əlində o qədər qüvvə var idi ki, tarı çox zaman mizrabsız çalardı.



### Diz üstündən sinəyə

Tarın adı hər zaman muğamlarımızla qoşa çəkilib. Yəni muğamsız tar, tarsız muğamın olması təsəvvürlərə belə gələ bilməz. Əfrasiyab Bədəlbəylinin dediyi kimi: "Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla demək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqi tarixində yeni bir səhifə açmışdır".

Azərbaycan muğamının inkişafı tarixində misilsiz xidmətləri olan Sadıqcan musiqi mədəniyyətimizin həm də novatoru olmuşdur. Azərbaycan musiqi tarixinin tədqiqatçısı Firudin Şuşinski yazırdı ki, Sadıqcan tarın təkmilləşdirilməsi üzərində işləyərək quruluşunu dəyişmişdir. Tarın qolunda olan bir çox artıq pərdələri atıb, 17 pərdə saxlamış, səsini gücləndirmək üçün birinci qoşa ağ simin və qoşa sarı simin hərəsindən bir oktava yuxarı zil səslənən iki cüt cinkənə simi əlavə etmişdir. Tarın rezonansını artırmaq, həm də lazım gəldikdə səslən-dirmək üçün sarı simdən bir oktava aşağı, yəni bəm səslənən bir qalın sarı boş sim də artırmışdı. Bundan əlavə, tarın qolunun yuxarısında, yəni kəlləyə yaxın yerdə əlavə pərdə bağlamaqla "lal barmaq" üslubunu da icad etmişdi. Sadıqcana qədər tarın beş simi var idi. O, tara altı sim də əlavə edərək 11-ə çatdırdı. Onun yaratdığı yeni tar daha gözəl, daha mükəmməl hesab olunurdu.

Həm də o zaman tarı adət üzrə diz üstündə qoyub əyilərək çalardılar. Sadıqcan bu bəsit qaydanı sıradan çıxararaq həmin alətin tarixində ilk dəfə onu sinə üzərində çalmağa başladı. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib.

Tarın dilini bilən, muğamlarımıza yaxından bələd olan bu sənətkarın bənzərsiz qabiliyyəti möcüzə hesab olunan başqa bir hadisədə də öz əksini tapmışdır. Bu, bir istedaddanmı, Allah vergisindənmi irəli gələn möcüzə imiş, bilmirəm, amma şahidlər nağıl edirlər ki, Sadıqcan qaratoyuğa bir neçə kiçik təsnif və mahnıları öyrədə bilibmiş. Bu barədə Qurban Pirimov yazırdı: "Bir gün Sadıq məndən xahiş etdi ki, onun üçün Gülablıdan bir bülbül gətirim. Mən də bir şeyda bülbül, bir də qaratoyuq apardım. Bir gün gəlib gördüm ki, o, qaratoyuğun qabağına bir güzgü qoyub. Özü isə kənarda durub tar çalır. İndiki kimi yadımdadır. O qaratoyuqların çöldə oxumalarına bənzəyən bir təsnif çalırdı. Güzgüdə öz şəklinə tamaşa edən qaratoyuq birdən başladı oxumağa. Mən təəccübdən yerimdə quruyub qaldım. Sadıq belə sənətkar idi. O, görünməmiş bir möcüzə idi".

### Şuşada Sadıqcanın evi bərpa olunur

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması müjdəsini xalqımıza Bakıda-Şəhidlər Xiyabanından verən, Qarabağı Şuşasız təsəvvür etməyən Ulu Öndər Heydər Əliyevin Qarabağın işğaldan azad olunması ilə bağlı vəsiyyətini xatırladan və ata vəsiyyətinə əməl etdiyini qürurla söyləyən dövlətimizin başçısının Şuşaya hər səfəri bu gözəllər gözəli şəhərin yeni bir abad ünvanı ilə tarixiləşir. Ötən il mayın 10-da Ümummilli Liderimizin doğum günündə Qarabağın baş tacı Şuşada olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada bir sıra obyektlələrin açılışında iştirak etmiş, bərpa işləri ilə maraqlanmışlar. Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı ev də bərpa olunanlar sırasındadır. Sadıqcanın evində bərpa işlərini humanistlik, qayğıkeşlik, yenilikçilik rəmzi, dövlətimizin inkişafında xüsusi yeri olan Heydər Əliyev Fondu həyata keçirir.

### Qədim muğamlarımızdan "Zəfər" muğamına

Qarabağ Zəfəri ilə Sadıqcan tarına yeni bir sim əlavə etdi, 12-ci simi-Zəfər simini. Bu sim qəlbimizin sarı simidir-həm hicran, həm vüsaldır, həm kədər, həm sevincdir. Bu sim 30 ilin qara sevdası, 44 günün sevdasıdır. Bu sim həm övlad dağı, həm də qürur dağıdır. Şəhiddir, qazidir, lakin həm də Vətən sevgisi, yurd məhəbbətidir. Anaların qara yox, al şalıdır-qürur şalıdır. Ataların oğul təşnəsi yox, torpaq-namus, şərəf xilaskarıdır. Bu sim anası Azərbaycana 30 illik həsrətdən sonra qovuşan Qarabağdır. Zəfərdir, ordudur, əsgərdir, müzəffər sərkərdədir. Məşhur tarzən, bəstəkar, böyük sənətkar Sadıqcanın Azərbaycan tarının ahəngdarlığı üçün 5-dən 11-ə qaldırdığı, daha təsirli etməsi üçün artırdığı 12-ci simdir. Zəfər nəğməsi yalnız o simlə ifa olunur indi. Bu səs Qarabağın bütün ellərinə azadlıq nəğməsini yaydıqca, onu yaradan sənətkar haqqında da söhbət açmağa səbəb yaradır.

Tək milli musiqi aləti tara yox, eyni zamanda milli musiqimiz muğama da bir sıra yeniliklər gətirən Sadıqcan "Segah" muğamını inkişaf etdirərək ona "Zabul" pərdəsini, "Mirzə Hüseyn" segahına isə "Müxalifi" əlavə etmiş, "Mahur"u daha da təkmilləşdirmişdir. Sadıqcanın bu ixtirasından sonra istər bəm, istərsə də yüksək səs diapazonuna malik xanəndələrə "Zabul"u oxumaq daha əlverişli olmuşdur. Çünki yenə də musiqişünasların dediyinə görə "Segah" muğamını tamam-dəstgah (yəni "Mayei-zabul", "Manəndi-Müxalif", "Orta Segah", "Məxluq", "Şikəsteyi-fars", "Mübərriğə", "Əraq", "Yədi hasar", nəhayət, "Aşiqiguş" şöbəsindən sonra təkrar "Zabul"a qayıtmaq) oxumaq üçün "Zabul-segah" öz həcmi etibarı ilə xanəndəyə daha gözəl şərait yaradır. Sadıqcandan əvvəl "Mahur" muğamının bir dəstgahı mövcüd idi. Sadıqcan "Mahur"a "Mahur-Hindi" və "Orta Mahur" dəstgahlarını əlavə etmiş, "Orta Segah" və "Bayatı-Şiraz"muğamlarına bir neçə rəng bəstələmişdir.

Sadıqcan tarımıza 12-ci simi əlavə etməklə "Zəfər" adlı muğamımızın ifasına həyat verdi. Qoy bu sim heç susmasın, "Zəfər" muğamını səsləndirsin. Bu səs öz gücünü Qarabağa yeni həyatın qayıtmasından, bütöv Azərbaycandan, vətənpərvər gənclərimizdən, ölməz şəhidlərimizdən, igid qazilərimizdən, ətrafında sıx birləşdiyimiz müzəffər sərkərdəmizdən alır. Qoy bu "Zəfər" muğamı heç susmasın. Susmasın ki, yaxınlıqdakı düşmənin qulaqlarını hər an məğlubiyyət acısı ilə "oxşasın".

*Mətanət Məmmədova*



# Azərbaycanın Avropadakı qaz bazarı

Bakı Macarıstana qaz nəqlini artırdığını açıqlayıb. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Budapeştə rəsmi səfəri zamanı planları açıqlayıb. Xəzər qazı ilk dəfə olaraq Macarıstan torpağına axmağa başlayıb. Bu ilin dördüncü rübündə ora 100 milyon kubmetr qazın vurulması planlaşdırılır. Macarıstan da Azərbaycandan qaz anbarları üçün 50 milyon kubmetr almaq niyyətindədir. Hər iki ölkənin strateji adlandırdığı tərəfdaşlığın genişlənməsi 2014 və 2023-cü illərdə imzalanmış Əməkdaşlıq Bəyannamələrindən sonra Azərbaycan və Macarıstanın bir-birinə qarşı təbii hərəkəti kimi qiymətləndirilə bilər. Lakin ilk növbədə Rusiyadan neft və qaz tədarükünün ciddi şəkildə azaldığını göstərən Avropa bazarlarında dəyişən vəziyyət Azərbaycanı Avropa ölkələri ilə enerji tərəfdaşlığı planlarına yenidən baxmağa məcbur edib.

Eurostatın son hesabatına nəzər salsaq, Aİ-nin Rusiya Federasiyasından idxal etdiyi qalıq yanacaqların payı iki il ərzində əhəmiyyətli dərəcədə azalıb. Belə ki, neft üzrə bu göstəricilər 29 faizdən 2 faizə, qaz üzrə 38 faizdən 13 faizə düşüb. Mövcud vəziyyət bir sıra ölkələri stimullaşdırıb. Rusiyanın Avropa bazarında iştirakının azalması ilə eyni vaxtda Əlcəzair, Böyük Britaniya və Norveçdən qaz tədarükünün payı artıb.

Göründüyü kimi, Ceyhun Bayramovun Budapeştə səfəri zamanı Avropanın Qonşuluq və Genişlənmə üzrə komissarı Oliver Varhelinin də bu şəhərdə olması təsadüfi deyildi. Danışıqlar aparılıb, bundan sonra Avropa komissarı Avropa İttifaqının strateji nəqliyyat və enerji layihələrini həyata keçirən Bakı ilə qarşılıqlı əlaqəni inkişaf etdirmək istəyini bəyan edib. Varhelyi "Biz daha çox qarşılıqlı fəaliyyətə hazırıq" deyib. Həmsöhbətlər, həmçinin, Azərbaycanın Orta Dəhliz adlanan nəqliyyat potensialının genişləndirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsləri və Cənubi Qafqazdakı vəziyyəti müzakirə ediblər. Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri görüşün yekunlarını şərh edib. "Avropa 2027-ci ilə qədər bizdən 20 milyard kubmetr qaz almağı gözləyir. İndiki dinamika bizə bu səviyyəyə çatmağa imkan verir. İlkin mərhələdə Azərbaycan təqribən 8 milyard kubmetr qaz verib. Keçən il - artıq 11,4 milyard kubmetr. m, bu il isə 12,5 mlrd. m, bu isə yalnız Avropa İttifaqı ölkələrinə aiddir", - Bayramov bildirib. Nazirin qeyd-şərti başa düşüləndir, çünki Avropa ölkələri ilə yanaşı, Azərbaycan qonşu Gürcüstana təbii qazın əsas tədarükçüsü və Türkiyə bazarında ən böyük satıcılardan biridir.

Budapeştdə aparılan danışıqlardan danışan Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri qeyd edib ki, Azərbaycan Macarıstana neft və qazla yanaşı, "yaşıl enerji" də tədarük etməyi planlaşdırır. Günəş respublikası alternativ enerjinin inkişafı üçün əhəmiyyətli potensiala malikdir. Beləliklə, ekspertlərin fikrincə, Xəzər dənizinin ümumi külək enerjisi 157 QVt-a çata bilər ki, bunun da 35 QVt-a qədəri dayaz sularda yerləşir və praktiki istifadə üçün ciddi maliyyə xərcləri tələb etmir. Günəş enerjisi də eyni dərəcədə yüksək potensiala malikdir. Buna ildə çoxlu sayda günəşli günlər kömək edir. Mərkəzi çay dərələri, eləcə də ölkənin şimal və şimal-qərbindəki ərazilər günəş elektrik stansiyalarının cəmləşdiyi yerlər hesab olunur.

Azərbaycan rəhbərliyi 2027-ci ilə qədər 3 QVt külək və 1 QVt günəş enerjisi istehsal etməyi qarşısına məqsəd qoyub ki, bunun da 80%-i Avropaya ixrac olunacaq. "Yaşıl enerji"nin təmin edilməsi üçün Qara dənizin dibi ilə çəkilmiş 1100 km uzunluğunda sualtı kabelin yaradılması layihəsi təklif edilir. Əvvəla, belə bir "sualtı elektrik xətti" Azərbaycan elektrik enerjisinin Gürcüstandan Rumıniyaya və daha sonra Avropaya çatdırılmasını təmin edəcək. Mütəxəssislərin fikrincə, onu üç-dörd il ərzində tikmək olar. Qara dəniz sualtı kabelinin yaradılmasına dair anlaşma memorandumu Azərbaycan prezidenti İlham Əliyev, Macarıstanın baş naziri Viktor Orban, Gürcüstanın baş naziri İrakli Qaribaşvili və Rumıniyanın baş naziri Nikolae Çiuka tərəfindən imzalanıb.

***V.VƏLİYEV***

# Azərbaycançılıq ideologiyasının banisi

**Həyatımız gündən-günə inkişaf edir, nəsillər biri-birini əvəz edir. Lakin Heydər Əliyev fenomeni bütün dövrlər və nəsillər üçün əbədiyaşarlıq statusu qazanıb desək, heç şübhəsiz ki, səhvə yol verməyrik. Heydər Əliyev Ulu tanrının hikməti ilə seçilmiş insan idi. Seçilmiş olmaq ümummilli liderimizin üzərinə Azərbaycanın ən yeni tarixini yaratmaq öhdəliyini qoymuşdu. Üzərinə düşən müqəddəs öhdəliyi layiqincə yerinə yetirən əbədiyaşar liderimizin Azərbaycanın müasir tarixinin gedişinə misilsiz təsirini qeyd etməmək olmaz. Müasir Azərbaycan tarixinin Heydər Əliyev dövrü təkcə sürətli inkişaf, iqtisadi yüksəliş anlayışları ilə səciyyələnmir. Bu, daha çox mahiyyətcə yeni dövrün, yeni tarixin formalaşması anlamına uyğun gəlir. Azərbaycanın qədim və çoxəsrlik tarixinin ulu öndərin süzgəcindən keçən yeni dövrü şanlı tariximizə Heydər Əliyevin adı ilə birdəfəlik həkk olundu.**

Ulu Öndər, Azərbaycan millətinin əbədiyaşar Ümummilli Lideri Heydər Əliyevin doğma xalqı qarşısında göstərdiyi xidmətlər, dahi şəxsiyyətin müasir tariximizdə oynadığı rol haqqında çoxsaylı əsərlər yazılıb və bundan sonra da hələ neçə-neçə dəyərli əsərlər yazılacaq. Ulu Öndərimizin fəaliyyəti o qədər zəngin və çoxşaxəlidir ki, onun bütün tərəflərini tam əhatə etmək uçun uzun zaman alacaq elmi-tədqiqatlara, araşdırmalara ehtiyac var. Həm də bu araşdırmalar kifayət qədər dərin və əhatəli olmalıdır. Müasir Azərbaycan Respublikası Ulu Öndər Heydər Əliyevin yaratdığı bənzərsiz Şah əsəridir. Dövlətçiliyimizin formalaşdırılmasında bir çox vacib amillər mühüm rol oynamışdır. Amma dövlətçilik anlayışını dərindən təhlil etməyi bacaran hər bir şəxs yaxşı bilir ki, buradakı ən önəmli amil məhz milli ideologiyanın formalaşdırılmasıdır. XX əsrin ikinci yarısında respublikamızda milli ideologiyamızın formalaşdırılmasında fenomenal biliyə və bacarıqlara malik olan Ümummilli Liderimiz Heydər Əliyev ölçüyə gəlməz dərəcədə böyük işlər gördü. Məhz bu dahi şəxsiyyətin yorulmaz fəaliyyəti sayəsində Azərbaycançılıq məfkurəsi formalaşdı, inkişaf etdi və qəti olaraq cəmiyyətimizdə hakim ideologiyaya çevrildi. Artıq müasir dövrümüzdə Azərbaycançılıq məfkurəsi bütün dünyada yaşayan 50 milyondan artıq azərbaycanlı üçün müqəddəs bir ideyaya çevrilmişdir. Sovetlər birliyi dönəmində milli ideologiyamız üçün sağlam təməl formalaşdırın Ulu Öndər 1993-cü ildə müstəqil Azərbaycan Respublikasında yenidən hakimiyyətə qayıtdıqdan sonra milli məfkurəmizi daha da yüksək zirvələrə qaldırdı. Müasir dövrümüzdə bu ideologiya Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməkdədir. 44 günlük Vətən müharibəsində mənfur düşməni qısa müddətdə diz çökdürən qəhrəman Azərbaycan oğullarının ən güclü tərəflərindən biri də məhz Azərbaycançılıq məfkurəsi ilə döyüşə atılmaqları idi.



*Ramiz Hüseynov*
*YAP İdarə Heyətinin üzvü, Sumqayıt şəhər təşkilatının sədri*

Azərbaycançılıq ideologiyasının ən mühüm tərkib hissələrindən biri müasir Azərbaycan Respublikasının yürütdüyü Multikulturalizm siyasətidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Multikulturalizmin Azərbaycan modeli dünya dövlətlərinə ən mükəmməl bir nümunədir. "Azərbaycançılığın" mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. "Azərbaycançılığın" gücü həm də ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyllərini üzvi şəkildə birləşdirməyə qadirdir. Milli ideyamızın dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mədəni ənənələri zəminində birlik ideyası dayanır. Bu ideya gələcək nəsillər üçün milli kimliyi, həyatı, azadlığı dərk edib, dərindən anlamağın ayrılmaz atributlarına çevriləcəkdir. Biz artıq Azərbaycanda milli ideologiyanın formalaşmasının şahidiyik. "Azərbaycançılıq" milli ideologiyamızın əsasıdır və Azərbaycan dövlətinin bütün tarixi boyu da bu belə olaraq qalacaqdır. Bu, Ulu Öndər Heydər Əliyevin zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyi kursdur.

Ümummilli Liderimiz dönə-dönə vurğulayırdı ki, xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir. Multikulturalizm və tolerantlıq Azərbaycan xalqının milli xüsusiyyətidir. Müxtəlif mədəniyyətlərin bir arada, yüksək tolerant şəraitdə mövcudluğu üçün Azərbaycan ən unikal bir mühitdir. Azərbaycan Respublikası dünyanın bəlkə də ən nadir ölkəsidir ki, burada müxtəlif dinlərin nümayəndələri - yəhudilər sinaqoqda, xristianlar kilsədə, müsəlmanlar məsciddə öz dini inanclarını sərbəst şəkildə icra edirlər. Azərbaycan xalqı öz yüksək multikultural dəyərlərini ölkəmizdə yaşayan hər bir etnik toplumun nümayəndəsinə münasibətdə ortaya qoyur. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamına əsasən 2016-cı il ölkəmizdə Multikulturalizm ili elan olunmuşdu. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu böyük uğurla və müvəffəqiyyətlə davam etdirən ölkə başçımız Cənab İlham Əliyev Multikulturalizmin və tolerantlığın təbliği istiqamətində bütün lazımi addımları atır. Dünyanın, xüsusilədə Avropanın bir sıra aparıcı universitetlərində "Azərbaycan Multikulturalizmi" fənninin tədris olunması Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsidir. Bu məqam heç şübhəsiz ki, bütün dünyada yaşayan hər bir Azərbaycanlını hədsiz qürurlandırır.

Ümummilli Lider Heydər Əliyev nəinki təkcə milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürdü, həm də eyni zamanda onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirdi. Ümummilli Liderimiz xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla çoxsaylı görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa səsləmişdir. Ulu Öndər daim həmvətənlərimizi yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, eyni zamanda, Vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun Azərbaycanı təmsil etdiklərini unutmamağa çağırmışdır.

Ulu Öndər özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi barədə Sərəncamın imzalanması xalqımız tərəfindən böyük qürur və rəğbət hissi ilə qarşılandı. Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Ulu Öndər özünün böyüklüyü ilə öz mənsub olduğu milləti dünya xalqlarına daha da yaxından tanıtdı. Ümummilli Liderimizin sayəsində dünya ölkələri xalqımızın yüksək mənəvi keyfiyyətləri ilə daha yaxından tanış oldu. Məhz Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqlik Azərbaycana çoxsaylı uğurlar qazandırır və qazandıracaq. Hesab edirəm ki, bugünkü müstəqil Azərbaycanın mövcudluğuna görə məhz Heydər Əliyevə borcluyuq.



## Medianın geni dəyişir

**Lalə Mehralı**

**8 sentyabr- Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür. Həmrəyliyi ən az nümayiş etdirən bizlərin yəni. Jurnalistika ən sürətli dəyişiklik yaşayan peşələrdəndir. Transformasiya o qədər sürətlə gedir ki, dünənlə bu gün arasında olan fərq heyrət doğurur.**

Əvvəl radio 1 idi, sonra çeşidləndi, ağ-qara ekranımız rəngləndi, mətbuatdakı həmkarlarım kağızdan sensora, əlyazmadan kompyuterə keçdi, televiziyaların sayı artdı, inkişaf dayanmadı, tv-lər internetdə göstərdi, 3 ölçülü görüntü ilə yayımlandı, qəzetlər QR kod ilə dərc olundu (yeri gəlmişkən ilk dəfə elə bizim qəzetdə- "Səs"-də tətbiq olundu). Dəyişiklik dayanmır, hər gün yenilik olur peşəmizdə.

Təəssüf ki, hər şey yaxşılığa doğru dəyişmədi. Peşəmiz getdikcə bizə də yadlaşmağa başladı. İndi bizim yazdıqlarımız bizdən başqa heç kimi maraqlandırmır. Hamı jurnalist olmağa həvəslənib çünki. Addımbaşı özünü jurnalist adlandıranlarla qarşılaşırıq. Təmənnasız xidmətimiz biznes maraqları üzərində qazanc məqsədi ilə əvəzləndi, məqalələri bizim yerimizə PR menecerlər yazmağa başladı, media orqanları sponsorların diqtəsi ilə işləməyə başladı. Öz həmkarımız olan rəhbərlərimizlə həmrəyliyimiz beləcə pozulmağa başladı.

Əvvəl peşəmizin qoxusu vardı, indi, sadəcə, virtualdır. Əvvəl mətbuatın oxucuya qarşı məsuliyyəti vardı, indi sponsora qarşı məsuliyyət var. Əvvəl bir mövzunun müəyyən aktuallıq dövrü vardı, bu 1 gün də olurdu, 1 həftə də, 1 ay da. İndi mövzu və gündəm hər saniyə dəyişir. Əvvəl media orqanını peşəkar idarə edirdi, indi sponsorlar idarə edir. Əvvəl işinin peşəkarı işə götürülürdü, indi hadisə yaratmağı, şou göstərməyi bacaranlara tələbat var. Əhəmiyyətli deyil o nə yazacaq, vacib deyil ki, hansı müğənninin alt paltarı barədə reportaj edəcək, səhər yeməyində yumurtanı soyutma, yoxsa qayğanaq sevməsi barədə müğənninin mətbəxindən stand-up edəcək, əsas odur ki, yazdığı gündəm olacaq. Görün oxucumuz hansı səviyyədən hansı səviyyəyə düşdü...

Məqalələrimiz şou nümayiş etdirən sosial şəbəkə jurnalistikasının kölgəsində qalmağa başladı. İnsanları bizim yazdığımız ciddi sosial, iqtisadi problemlər yox, kimin necə yeməsi, necə yatması, nə geyməsi, harda gəzməsi maraqlandırdı. Biz yalnız dar gündə yada düşdük - problemi olan, dərdi dəbərən, köməyə ehtiyacı olan insanlar axtardı bizi. Təmənnasız xidmətimiz müqabilində bir quru "sağ ol" almadığımız vaxtlar çox oldu. Bütün peşəkar həmkarlarımı bu soyutdu peşədən, hərə bir tərəfə dağıldı, həmrəyliyimiz pozuldu.

Qəzetlərin vəziyyəti ağırlaşdı, tirajlar düşdü, gəlirlər azaldı. Bizə ən böyük rəqib elə öz peşəmiz oldu, virtual müstəviyə keçdiyi üçün.. Qəzetlərin tirajı düşdükdə sosial şəbəkə jurnalistikasının "like" sayı artdı. Zamana ayaq uyduran bəzi həmkarlarımız ciddi jurnalistikanın başını buraxdı, şouya qurşandı, bəyəndim sayı, hədiyyə yağışı ataşinə tutuldu. Onlarla həmrəyliyimiz də alınmadı, daha başqa-başqa gerçəklərimiz var çünki.

Dəyişiklik, yenilik vacibdir, amma baxır hansı istiqamətdə. Transformasiya bizə, peşəmizə fayda gətirməyəcəksə nə önəmi var? Əfsus ki, jurnalistikada dəyişiklik bizi irəli yox, sona aparır. Bu qədər sürətli yenilik bir gün bizə yetməyəcək, daha çoxunu istəyəcəyik, peşəmiz getdikcə genini dəyişəcək, bizə yadlaşacaq və bir gün mətbuatdakı təkamül hamımızın narahat gözlərlə baxacağımız "bağlanış tamaşası" ilə sonlanacaq.

# Birgə həmrəylik və əməkdaşlıq



## Sentyabrın 8-i Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür

**Bu gün 1958-ci ildən etibarən, qeyd edilir. Həmin il Beynəlxalq Jurnalistlər Təşkilatının Buxarestdə keçirilmiş IV Konqresində bununla bağlı qərar qəbul olunmuşdur. Dünya mediası üçün əlamətdar sayılan bu tarix 1943-cü il sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çexiyalı jurnalist Yulius Fuçikin xatirəsinə təsis edilmişdir.**

Söz və məlumat azadlığının təmin olunması sahəsində həyata keçirilmiş məqsədyönlü siyasətin nəticəsində bu gün Azərbaycan kütləvi informasiya vasitələrinin sayına görə, MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, azad mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaranmışdır. Ölkəmizdə söz və məlumat azadlığını məhdudlaşdıran maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir", - deyərək söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulmasının Azərbaycanda çox vacib olan məsələlər olduğunu qeyd edib: "Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

### SÖZ VƏ MƏTBUAT AZADLIQLARININ QANUNVERİCİLİK BAZASI DEMOKRATİKLƏŞDİRİLDİ

Azərbaycan dövləti tərəfindən azad söz, azad mətbuat problemlərinind həlli istiqamətində addımlar atılır. Təbii ki, Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin səyləri ilə qəzet-jurnalla-





rın maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürü oldu. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı.

### MƏTBUATA DAVAMLI QAYĞI

Dövlət başçısının Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə imzaladığı "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında" 22 iyul 2019-cu il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının növbəti bir nümunəsi idi. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrıldı. Qeyd edək ki, dövlətimiz tərəfindən qəzetlərə ayrılan diqqət və qayğı sistemli və davalı xarakter daşıyır. "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının bir nümunəsi idi.

Məlum Sərəncamla Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün dövlət büdcəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılmışdı. Məlumdur ki, Azərbaycan Prezidenti milli mətbuatın 145 illik yubileyinin keçirilməsi haqqında 30 iyun tarixində Sərəncam imzaladı. Milli Mətbuat günündə isə Cənab Prezidentin imzaladığı bir sıra sərəncamları dövlətimizin milli mətbuatımıza olan diqqət və qayğısını bir daha təsdiqləmiş oldu. Dövlət başçısının sərəncamları ilə Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin bir sıra əməkdaşlarına fəxri adlar, mükafatlar verildi. Eləcə də, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək və Azərbaycan milli mətbuatının 145 illik yubileyi ilə əlaqədar tədbirlər təşkil etmək üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 300,0 (üç yüz) min manat ayrıldı. Həmin sərəncamla Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 3.0 (üç) milyon manat ayrılıb. Bütün bunlar mətbuatımıza göstərilən diqqətin davamıdır.

Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. Bu gün informasiya mühiti gündən-günə modernləşir, qabaqcıl texnologiyalar həyatımıza daxil olur. Belə bir zamanda mətbuatımızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq kimi məsuliyyətli vəzifə dayanır.

### ƏN QAYNAR NÖQTƏLƏRDƏN REPORTAJLAR

Bu gün biz ən həssas dönəmlərdə jurnalistlər birləşməyi bacarır. Eyni yerə yumruq vururuq. Son dövrün hadisələri bunu bir daha ortaya qoymuş oldu. Əlbəttə ki, iki cəbhədə ən çətin zamanlarda vuruşan Azərbaycanda bütün xalqımız, eləcə də jurnalistlər həmrəy oldular. Koronavirusla mübarizə və 44 günlük Vətən müharibəsi. Ağır dönəm olsa da birləşməyi bacardıq. Ən qaynar nöqtələrdən mətbuat işçilərinin səsi eşidildi. İki jurnalistimiz Kəlbəcərdə mina partlayışının qurbanına çevriləndə biz media həmrəyliyinin ən yüksək formasını gördük. Bir cəbhədən - 44 günlük Vətən müharibəsindən Zəfərlə çıxdıq. Qısa bir zamanda pandemiyaya da qalib gəldik. Müharibə zamanı, hətta beynəlxalq aləmin mətbuatı da bizimlə həmrəy oldular. Jurnalistlər cəmiyyətdəki mənfiliklərə, öz həmkarlarının problemlərinə biganə qalmırlar. 44 günlük Vətən müharibəsində dünyanın bir cox nöqtələrindən gələn jurnalistlər ən qaynar nöqtələrdən reportajlar hazırlayaraq, erməni vəhşiliyini dünya ictimaiyyətinə təqdim etdilər. Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar, erməni xisləti ilə bəşər övladını tanış etdilər. Bu, əlbəttə ki, birgə həmrəyliyə, əməkdaşlığa söykənir.

***Zümrüd BAYRAMOVA***

# Şagird və müəllimlərin hücumlardan qorunması mütləqdir



Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən silahlı təcavüzü zamanı mindən çox təhsil müəssisəsi və uşaq bağçası tamamilə məhv edilib. Bu gün qloballaşan dünyamızda uşaqların xoşagəlməz mühitlə rastlaşması hər kəsə bəllidir. Toqquşmalar, qanlı müharibələr, terrorlar, xəstəliklərlə yaşadığımız dünya uşaqlara da təsirsiz ötüşmür. Belə bir zamanda bu uşaqların təhsildən kənarda qalmaması aktullıq kəsb edir. Gələcəyimiz olan uşaqların normal şəraitdə təhsil almaları, sağlam mühitdə böyümələri, psixoloji travmalardan uzaq yaşaması üçün birgə səylər vacibdir. Bildiyimiz kimi, sentyabrın 9-u Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 74/275 saylı qətnaməsinə əsasən, Təhsilin Hücumdan Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Baş Assambleyanın Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü elan etməsi barədə yekdil qərarını alqışlayıb və YUNESKO və UNİCEF-i münaqişədən zərər çəkmiş ölkələrdə yaşayan milyonlarla uşağın acınacaqlı vəziyyəti barədə məlumatlı olmağa çağırıb. Əlbəttə ki, təhsilin bütün səviyyələrində olan, xüsusilə də həssas qruplara aid bütün şagirdlər üçün inklüziv, ədalətli, keyfiyyətli təhsilin qorunması və təmin edilməsi vacib amillərdəndəir. Münaqişə yarandığı bölgələrdə məktəblərin, şagird və müəllimlərin hücumlardan qorunması mütləqdir. Uşaqların təhsil almalarına qarşı yönələn istənilən maneənin, hücuma qarşı sərt mövqe göstərilməli və qarşısı alınmalıdır. Ötən əsrin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində bu acınacaqlı tarixi yaşamışıq. Məktəblərimiz ermənilər tərəfindən dağıdılmış, müəllim və şagirdlərə ziyan dəymişdir. 44 günlük Vətən müharibəsi dövründə də dünyanın gözü qarşısında Azərbaycan bu zərbələrə yenidən məruz qaldı.

Uşaq Hüquqları Konvensiyasının və onun Uşaqların Silahlı Münaqişələrə cəlb edilməsinə dair Əlavə Protokolunun, habelə 1949-cu il Müharibə Qurbanlarının Müdafiəsi üzrə Cenevrə konvensiyalarının tərəfi olan Azərbaycan Respublikası uşaq hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə və silahlı münaqişələrdən əziyyət çəkən uşaqların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq səylərə qətiyyətlə və davamlı olaraq dəstək verir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş silahlı təcavüzü zamanı Azərbaycanın təhsil infrastrukturuna ciddi ziyan vurulub, mindən çox təhsil müəssisəsi və uşaq bağçasının tamamilə məhv edilib.





### BEYNƏLXALQ HUMANİTAR HÜQUQ NORMALARINA ZİDD OLARAQ 54 MƏKTƏBİMİZ DAĞIDILDI

Vurğulamaq yerinə düşər ki, Ermənistan silahlı qüvvələrinin Tərtər rayonun artilleriya atəşinə tutması nəticəsində 18 məktəb binasına ziyan dəymiş, 2 məktəb binası tamamilə yararsız vəziyyətə düşmüşdü. Sinif otaqları, binalar tamamilə dağıdılmışdı. Erməni işğalçıları tərəfindən Gəncə şəhərinin ballistik raketlə hədəfə alınması nəticəsində doqquz məktəbə ziyan dəymişdir. Bu kimi hallar Azərbaycan təhsilinə hücumdur. Baş vermiş 44 günlük müharibə zamanı da Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq məktəbləri qəsdən hədəfə alıb, nəticədə 54 məktəbimiz dağıdılıb, 6-15 yaş arası 10 məktəbli faciəvi şəkildə qətlə yetirilib, 16 məktəbli isə yaralanıb. Münaqişəni geridə qoyaraq, Azərbaycan diqqətini bütün uşaqlarımızın təhsil və potensiallarından təhlükəsiz şəkildə istifadə etmələrinə yönəldib. Hazırda azad olunmuş ərazilərimizdə məktəblərimizi yenidən tikirik.

### YENİDƏN QURULAN TƏHSİL MÜƏSSİSƏLƏRİMİZ

Müstəqillik tariximizdə Azərbaycanda bütün sahələrdə əldə edilən inkişaf təhsil sahəsindən də kənar ötməmişdir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına gətirib çıxarıb. Həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yenilənib. Ölkədə təhsilin müasir tələblərə cavab verən normativ-hüquqi bazası yaradılıb. Təhsil müəssisələri yenidən qurulub, yeni korpuslar istifadəyə verilib. Bunu Azərbaycanın hər bir bölgəsində görmək mümkündür.

30 ilə qədər işğal altında olan Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin xüsusi diqqəti sayəsində abadlıq-quruculuq işləri aparılır. Yeni məktəblərin salınması da görülən işlər sırasındadır.

Bildiyimiz kimi, Cocuq Mərcanlı işğaldan azad olunduqdan sonra burada aparılan abadlıq-quruculuq işləri nəticəsində tezliklə bu ərazi müasir məkanlar sırasına daxil olundu. Dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Kənddə böyük quruculuq işlərinə başlandı. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı görülən işlər çərçivəsində fərdi yaşayış evləri, infrastrukturun tikintisi ilə yanaşı, 96 şagird yerlik yeni məktəb binası da tikilib istifadəyə verildi. Müasir standartlara cavab verən məktəbdə ölkəmizin bir çox yerlərində olduğu kimi, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Qeyd edək ki, məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar da salınıb. Bu gün Cocuq Mərcanlıda tikilən məktəb kimi işğaldan azad olunan digər ərazilərimizdə də tikilir, yenidən qurulur. Görülən işlər, davamlı səylər nəticəsində bərpa işləri uğurla davam edir. Yeni tipli məktəblər salınır. İşğaldan azad olunan ərazilərdə həyat yenidən qurulur.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşada inşa olunan 1 nömrəli məktəbin tikintisi davam edir. Məktəbin tikintisi cari ilin dekabr ayında yekunlaşacaq. Eləcə də Ağdam şəhərlərində məktəb tikintisi davam etdirilir. Hər iki şəhərdə ümumilikdə 960 şagird yerlik təhsil müəssisələri inşa olunur. Dövlət başçısı "Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu gün ümumtəhsil orta məktəblərlə yanaşı, müasir çağırışlara cavab olaraq peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. "Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılıb. Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva cari ilin mayın 10-da Füzuli rayonuna səfər çərçivəsində Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlini qoyublar. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Lisey ildə 800-ə yaxın tələbə qəbul edəcək. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına yönəlib. Sentyabrın 9-u tarixini Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi dünya ictimaiyyəti ilə Azərbaycan birgə qeyd edir. Azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətlərinə görə Ermənistan məsuliyyət daşıyır.

Əlbəttə ki, silahlı münaqişələr zamanı bütün səviyyələrdə təhsil müəssisələrinə hücumların baş verməsi ilə əlaqədar BMT tərəfindən Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Gününün elan edilməsi təqdirəlayiqdir.

**Zümrüd BAYRAMOVA**

# Qadın enerjisi nədir?

ARAŞDIRMA

**Qadın enerjisi son zamanlar çox istifadə olunan bir anlayışdır. Qadın enerjisi və kişi enerjisi insanın balanslı bir həyat sürməsi üçün bilinməsi lazım olan anlayışlar kimi ifadə edilir.**

## Bəs, qadın enerjisi yüksəldikdə nə baş verir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Məlumdur ki, insan doğulduğu zaman bir cinsdə olur. Lakin, hər bir insanın daxilində qadın və kişi enerjisi var. İnsanın içindəki bu enerji hislərə böyük ölçüdə təsir edir.

Qadın enerjisi insanın içindəki duyğuların və intuisiyaların əksidir. Bu enerji ümumiyyətlə beynin sağ tərəfində üstünlük təşkil edir. Qadın enerjisinin əksi isə kişi enerjisidir. Hər iki enerjinin bəzi unikal xüsusiyyətlərə malik olduğunu söyləmək mümkündür. Deməək olar



ki, qadın enerjisi kişi enerjisindən daha passivdir. Qadın enerjisi yüksək olan insanlar bu xüsusiyyətlərinə görə heç vaxt harmoniyada çətinlik çəkmirlər.

Sağ beynin qadın enerjisindən çox təsirləndiyini söyləmək olar. Sağ beyin ümumiyyətlə sənət və ehtirasların hakim olduğu bir hissədir.

İnsanda qadın enerjisi artdıqca onun içindəki sevgi də üzə çıxır və buna uyğun olaraq sevgidə artım müşahidə olunur. Qadın enerjisini artıran amillərlə yanaşı, onu azaldan amillərin olduğunu söyləmək mümkündür.

Astrologiyada kişi və qadın arasında fərq Bürc əlamətlərinə görə aparılır. Qadın enerjili bürclər balıq, buğa, xərçəng, oğlaq, əqrəb və dolçadır. Qadın planetləri isə Ay və Venera kimi ifadə edilə bilər.

Qadın enerjisinin xüsusiyyətləri olduqca asanlıqla başa düşülə bilər. Belə ki, qadın enerjisi risk etməyən, izləyən, uyğunlaşan, passiv, ilk düşünən, tələsməyən, təhlükəsizliyini düşünən, addım atmazdan əvvəl düşünən, motivasiyasız işə başlaya bilməyən, fədakar, inanan biridir.

Qadın enerjisi həm kişilərin, həm də qadınların daxili aləmində mövcuddur. Bu enerji yönləndirici xüsusiyyətə malikdir. Qadın enerjisi sağ beyni təmsil edir və ona təsir edir. İnsanın yaradıcı tərəfini qadın enerjisi ilə ifadə etmək mümkündür. Beynin sağ hissəsini təmsil edir. Ümumiyyətlə sevgi yönümlüdür. Bir məsələ ilə bağlı qərar qəbul edərkən onun mərhəməti həmişə ön plana çıxır. Həmişə dinləyir və intuisiyasına əhəmiyyət verir. O, insanın azad tərəfini təmsil edir. Həmçinin, qadın enerjisi həyatı olduğu kimi, öz təbii axarında qəbul etmişdir.

Qadın enerjisi varlıq enerjisi kimi, yaxud kişi enerjisinin tam əksi kimi tanınır. Qadın enerjisi öz daxili aləmindən xəbərdardır. Kişi enerjisi və qadın enerjisi sosial həyatda kişi və qadınların gözləntilərinə görə adlarını belə alıb.

Əhval-ruhiyyəni tamamilə təsir edən bu enerji yaradıcılıq, bolluq, sevgi, şəfqət və intuisiya kimi xüsusiyyətləri simvollaşdırır. Qadın enerjisi cəmiyyətin hər sahəsində və fərdi həyatımızda mühüm rol oynayır. Bu enerjinin tarazlaşdırılması şəxsi inkişaf və sosial tərəqqi üçün vacibdir.

Qadın enerjisi həm duyğuların, həm də intuisiyanın əksini ifadə edir. Bununla belə, qadın, yaradıcı və tərbiyəvi keyfiyyətlərə aiddir. Bu enerji bir çox mədəniyyətlərdə qadın ilahiliyi, məhsuldarlıq, bolluq, emosional əlaqə və həyatvericiliklə əlaqələndirilir. Qadın enerjisi



Yin və Yang fəlsəfəsi ilə əlaqəli olan Yinin qadın cəhətinə uyğundur. Yin və Yang Çin fəlsəfəsində əksləri təmsil edən və bir-birini tamamlayan anlayışlardır. Yang enerjisi daha kişi, aktiv və ekstravert, Yin enerjisi isə daha qadın, passiv və introvertdir. Qadın enerjisi bu Yin xüsusiyyətini ifadə edir.

Qadın enerjisi yaradıcılıq, intuisiya, şəfqət, empatiya, emosional əlaqə kimi xüsusiyyətlərə malikdir. Bu enerjinin qadınlarda daha qabarıq olduğuna inanılır. Lakin hər bir fərddə tapılan universal enerji hesab edildiyi hallar da var. Qadın enerjisi qadının təbii dövrlərini, analıq qabiliyyətlərini və cəmiyyətdəki rolunu əks etdirir. Digər tərəfdən, təbiət, torpaq, su və məhsuldarlıq simvolları ilə əlaqəsi var.

## Qadın enerjisinin xüsusiyyətləri

Ənənəvi olaraq qadınlara aid edilən xüsusiyyətlərin ifadəsi olan qadın enerjisi bir çox emosional vəziyyətlərdə özünü göstərir. Bu enerji yaradıcı, tərbiyəli, şəfqətli, emosional, möhkəm, bağlı və daxili güc mənbələrinə malik olmaq kimi keyfiyyətləri təmsil edir. Bundan əlavə, qadın enerjisinin xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- Qadın enerjisi yeni ideyaların, layihələrin və həllərin yaranmasında mühüm rol oynayır. -Yaradıcılıq təxəyyüldən istifadə, bədii ifadə, innovasiya və yeni perspektivlər gətirmək kimi sahələrdə özünü göstərir.

- Qidalanma və qulluqda güclü təsir göstərir. -Ana kimi sevgi ilə tərbiyə etmək, başqalarına dəstək olmaq, empatiya göstərmək və ehtiyacları ödəmək kimi xüsusiyyətləri ehtiva edir.

- Qadın enerjisi olan insanlar başqalarına qarşı xeyirxahlıq, şəfqət və anlayış göstərmək bacarığı ilə əlaqələndirilir. Başqalarının emosional ehtiyaclarını başa düşmək və dəstəkləmək qadın enerjisinin mühüm aspektidir.

- Qadın enerjisi olan insanlar emosional dərinliyə, həssaslığa və əlaqəyə diqqət yetirirlər. Buraya həmçinin emosiyaları ifadə etmək, emosional zəka, münasibətlərdə bağlanma və emosional tarazlığı qorumaq kimi bacarıqlara sahib olmaq daxildir.

- Qadın enerjisinin bir xüsusiyyəti, instinktiv müdriklik, intuisiya və daxili rəhbərlik kimi keyfiyyətləri əks etdirməsidir. İntuitiv olmaq daxili səsə qulaq asmaq, dərin daxili biliyə çatmaq və daxili rəhbərliklə hərəkət etmək deməkdir.

- O, həmçinin uyğunlaşma, çeviklik və dəyişikliyə açıqlığı ifadə edir. Çətinliklərin öhdəsindən gəlmək, uyğunlaşmaq, fərqli perspektivləri qəbul etmək və asanlıqla transformasiyanı yaşamaq qabiliyyətinə malikdirlər.

## Qadın enerjisini necə artırmalıyıq?

Qadın enerjisini artırmaq üçün bir çox üsul var. Bu üsullardan sizə uyğun olan birini və ya bir neçəsini seçərək qadın enerjinizi artıra bilərsiniz:

## Özünüzə vaxt ayırın

Özünüzə vaxt ayırmaq qadın enerjinizi kəşf etməyə kömək edir. Meditasiya, yoqa, nəfəs məşqləri və ya təbiət gəzintiləri kimi üsullarla zehninizi sakitləşdirərək daxili rahatlığı tapa bilərsiniz.

## Yaradıcılığınızı işə salın

Yaradıcılıq birbaşa qadın enerjisi ilə əlaqəli olduğundan, diqqətinizi bu sahəyə yönəltməyi tövsiyə edirik. Özünüzü bədii fəaliyyətə, rəqsə, musiqiyə və ya yazıya yönəltməklə daxili yaradıcılığınızı ifadə edə bilərsiniz.

## Təbiətin ritminə uyğunlaşın

Təbiətin ritminə uyğun yaşamaq qadın enerjisini dəstəkləyir. Gündəlik işinizə təbii



ritmləri daxil etməlisiniz. Günəş çıxanda və ya qürubda meditasiya etmək, ay təqviminə əməl etmək və ya təbiətdə vaxt keçirə biləcəyiniz vaxtları təşkil etmək kimi fəaliyyətlərlə təbiətin dövrlərinə qoşula bilərsiniz.

## Qadın qruplarına qoşulun

Qadın qrupları qadın enerjisini yüksəltmək üçün faydalıdır. Çünki o, qidalandıran və dəstəkləyən güclü bir mənbədir. Ətrafınızdakı qadınlarla əlaqə qurmaq, qadınlarla söhbət etmək, təcrübələrinizi bölüşmək və bir-birinizi dəstəkləmək qadın enerjinizi artırır. Beləliklə, qadın həmrəyliyi qadın enerjinizi artırmağa kömək edir.

## Özünüzü qidalandırın

Bədənin ehtiyac duyduğu qidaları müntəzəm qəbul etmək sağlamlığı və enerjini artırır. Bu çərçivədə balanslı bir qidalanma planı yaradaraq sağlam qidalar istehlak edə bilərsiniz. Digər tərəfdən istirahət, yuxu və məşq kimi fiziki olaraq özünüzü qidalandıracaq üsullarla məşğul ola bilərsiniz.

## Emosional balansı saxlayın

Emosional tarazlıq qadın enerjisinin artırılmasında təsirli olur. Özünüzü emosional olaraq qidalandıracaq fəaliyyətlərə vaxt ayırmalısınız. Sevdiklərinizlə vaxt keçirməli və dəstəkləyici əlaqələr qurmalısınız. Emosional ehtiyaclarınızı ifadə etməkdən də çəkinməməlisiniz. Bununla belə, mənfi emosiyalardan azad olmaq üçün istirahət üsullarını tətbiq etməlisiniz.

## Qadın enerjisi meditasiyası necə olmalıdır?

Qadın enerjisi meditasiyası qadın enerjilərini aktivləşdirmək və balanslaşdırmaq üçün uğurlu bir üsuldur. İstənilən enerji evdə və ya hər hansı bir sahədə qadın enerjisi meditasiyasını həyata keçirməklə əldə edilir. Aşağıdakı addımları ataraq qadın enerjinizi yüksəldə bilərsiniz:

## Rahat mühit yaradın

Qadın enerjisi meditasiyası üçün sakit və rahat bir mühit seçilməlidir. Lazım gələrsə, otağınızı təmizləyərək xoş qoxular əlavə edə bilərsiniz. Rahat bir oturma yeri tapıb gözlərinizi yumaraq meditasiyaya başlaya bilərsiniz.

## Dərin nəfəs alın

Dərin və yavaş-yavaş nəfəs almalısınız. Bədəninizi rahatlaşdırmaq və zehninizi sakitləşdirmək üçün bir neçə dəfə bunu etməlisiniz.

Qadın enerjisini təmsil edən simvollar və ya şəkillər haqqında düşünə bilərsiniz. Bu simvolların sizin üçün nə olduğuna diqqət yetirməlisiniz. Məsələn, ay, ulduz, günəş, çiçək fiquru. Beyninizi bu simvollarla dolduraraq qadın enerjisinə diqqət yetirməlisiniz.

## Bədəninizdəki enerjiyə diqqət edin

Bədəninizdə hiss etdiyiniz enerjiyə diqqət yetirməlisiniz. Bu enerjini müşahidə etmək lazımdır. Məsələn, onun necə hərəkət etdiyinə və hansı sahələrdə cəmləşdiyinə diqqət yetirməlisiniz. Xüsusilə çanaq bölgəsi, omba və qarın kimi qadın enerji mərkəzlərinə diqqət yetirməlisiniz.

## Enerjini balansda saxlayın

Enerjinizin balanssız olduğunu və ya bloklandığını hiss edirsinizsə, bunu tarazlaşdırmaq üçün bir neçə dəfə nəfəs ala bilərsiniz. Siz bloklanmış hiss etdiyiniz yerləri vizuallaşdırmalısınız və nəfəsinizi bu bölgələrə yönəltməlisiniz. Bununla belə, enerjinin sərbəst axmasına icazə verməlisiniz.

## Bağışlamağı bacarın və sevin

Qadın enerjisi meditasiyası zamanı özünüzə qarşı bağışlayıcı və sevgi dolu olmalısınız. Bədəninizi, duyğularınızı və düşüncələrinizi qəbul etməlisiniz. Özünüzə şəfqət göstərin.

## Meditasiyanı tamamlayın

Bu meditasiyanı müəyyən müddətə davam etdirməlisiniz. Lazım olan qədər ona zaman ayırın. Yenidən dərindən nəfəs alın, gözlərinizi açın və bədəninizdəki enerji hərəkətlərinə diqqət yetirin.

Enerjinizi artırmaq və ya balanslaşdırmaq üçün bu meditasiyanı həftədə bir neçə dəfə edə bilərsiniz. Beləliklə, qadın enerjiniz qalıcı və həmişə yüksək olacaq".

*Ayşən Vəli*

# ”Qarabağ Azərbaycandır”a şahidlik edən şəhidlər!

## Bəs Vətən satqını Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu kimilər hansı üzlə bu torpaqdasınız?

***Deyirlər, torpaq su ilə qarışanda palçıq, şəhid qanı ilə qarışanda isə Vətən olur. Bəli, cəmi 44 gün ərzində igid oğullarımız Vətən yolunda canını sipər etdi, qanları ilə bu torpağı suladı, qorudu ki, Vətən torpağını qeyrət, qəhrəmanlıq, hünər, təəssübkeşlik bitsin, göyərsin...***

”Şəhid qanı axmayan torpaqdan Vətən olmaz”,- dedilər Şəhidlərimiz. onu da dedilər ki, bu gün biz Şəhid olmuruq, işğal olunan torpaqlarımızın azad olunmasında Şahidlik edirik. Azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan Bayraqlarımızın qaldırılmasına Şahid oluruq!. Çünki bu gün bu əsgərlərimiz üçün cəbhə bir ananının oğullarının, bir bacının qardaşlarının bir olduqları döyüş meydanıdır. Çünki siz Şəhid olan əsgərlərimiz, yurdsevər ərənlərimiz, bir an düşünmədən canını Vətən, torpaq yolunda fəda edən cəngavərlərimiz - hər kəsə nəsib olmayan Tanrının, haqqın dərgahındasınız!.. Düşməndən qisas almağa can atan, qeyrətli, təəssübkeş, Vətənin ən layiqli oğullarısınız!. ”Vətən üçün ölməyə dəyər!” - deyən əsgərlərimiz düşmən qarşısında diz çökməyən, diz çökdürən ərənlərimizsiniz. Qeyrətli igidlər, Vətənin dar günündə düşmən qarşısına - önə çıxdınız, sinənizi sipər edib ömrünüzü bu millətin ömrünə caladınız. Doğulduğunuz torpaqdan yüzlərlə kilometr uzaqda ”Öncə Vətəndir”, - deyib canından keçən igid oğullarımız, sizin igidliyinizin nəticəsidir ki, bu gün bütün evlər, eyvanlar, yollar üçrəngli Bayrağımızla bəzənib. O Bayraq ki, sizin kimi oğulların sayəsində ucalır, dalğalanır. O bayraqlar ki, sizin şücaətinizin sayəsində Cəbrayıla, Qubadlıya, Füzuliyə, Zəngilana, Ağdama, Şuşaya, Kəlbəcərə, Laçına - Qarabağ Azərbaycandır!a yol aldı. Və özünüz də Qarabağ Azərbaycandır! uğrunda canınızı qurban verdiyiniz üçrəngli bayrağa bükülüb qəhrəman kimi qayıdırsınız elimizə, evinizə, yurdumuza, uğrunda can verdiyiniz Vətən torpağına. Bax, budur Şahidlik edən oğullarımızın Şəhidliyi!. Bax, budur qeyrət, hünər! Siz Azərbaycanın rəşadətli, igid əsgərlərisiniz! Siz xilaskar əsgərlərimizin qanı ilə yoğrulan torpaqlarımızın xilaskarlarısınız. Çünki Qarabağ Azərbaycandır!

### ALİ BAŞ KOMANDANIMIZ İLHAM ƏLİYEV CƏNABLARI DEDİYİ KİMİ: ”Bizim əsgərlərimiz xilaskar əsgərlərdir, erməni əsgərləri işğalçı əsgərlərdir”



Bəli, bizim əsgərlərimiz xilaskar əsgərlərdir, silah, tkexnika düşməndə də var, ancaq o texnikanı istifadə edən o qol deyil, düşmən qoludur. Çünki Azərbaycan əsgərinin məsləki Qürurdur, Zəfərdir, Vətən torpağına üç rəngli Azərbaycan Bayrağını sancmaqdır! Bu gün Vətən torpağımız igidlərimizin qanı ilə düşməndən azad olundu. Şəhidlərimizin də qisası alındı! Və torpağını öz qanları ilə yoğuran, Vətən edən, Vətən uğrunda ölümü ilə əbədiləşən ŞƏHİDLƏRİMİZİN məzarının başında qələbə soraqlı üçrəngli ay-ulduzlu Bayrağımız qürurla dalğalanır!

Ancaq Vətəni, qeyrəti, namusu olmayanlar sosial şəbəkələrdə”millət fədaisi” satılıb-satan Əli Kərimli, öz savadsızlığı və səviyyəsizliyi ilə tanınan, mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid, kökü, mənəviyyatı erməni xislətli, erməni təxribatına qahmar çıxan Sevinc Osmanqızı, satqınlığını hər cür formada nümayiş etdirən Arif Məmmədov, ”Yurd” şefinin sədrinin traypkası olan Cəmil Həsənli, özünü ”Milli Şura”nın ”primadonnası” sayan Gültəkin Hacıbəyli, özünü ”hüquq müdafiəçisi” hesab edən Vidadi İskəndərli və bu kimi xalqın düşmənləri usanmaq bilmədən Cəmil Həsənli, özünü ”Milli Şura”nın ”primadonnası” Gültəkin Hacıbəyli kimilərin yalan üzərində qurulmuş ”informasiya tələsi” həmişə olduğu kimi xalq onların bu torpaq yaşamasına qarşı etirazlarını bildirir. Çünki bu gün 30 ildən çox doğma yurdlarına həsrət qalan bir milyondan çox soydaşlarımızın həsrətinə Ali Baş Komandanımız, Prezident İlham Əliyev ”Dəmir yumruq” siyasəti ilə igid oğullarımız cəmi 44 gündə xilas etdi. Bu gün isə satqın Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbıyli, özünü ”qazi” sayan Tofiq Yaqublu kimi satqınların bu torpaqda yaşamaq haqqı yoxdur! Və əmin olsunlar ki, onların bu çirkin niyyətləri heç vaxt həyata keçməyəcək. Nə dövr həmin dövrdür, nə də Azərbaycan həmin illərdəki Azərbaycandır. Bu gün Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş, siyasi və iqtisadi baxımdan tam müstəqil olan, dünyada nüfuz qazanmış, sabit, inkişaf edən hüquqi və demokratik dövlətdir. Azərbaycanı bu sivil demokratiya yolundan döndərmək niyyəti Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Qənimət Zahid, Sevinc Osmanqızı, Arif Məmmədov, Yaqublu kimi avantüristlərin gözündə qalacaq. Çünki Azərbaycan xalqı onu və onun kimi düşünənləri çoxdan tarixin zibilliyinə atıb.



Və özləri kimi başı boş, savadsız Ermənistanın baş naziri Nikol Paşinyanın müdafiə edən çıxışlar etmələri isə, ancaq və ancaq vicdansızlıq və nankorluqdur! Bu satqınların mənəvi deqrodasiyaya uğradıqlarıyla yanaşı, etnososioloji varlıq olaraq erməniləşdiklərini, tarixi düşmənlərimizlə eyni mental xüsusiyyətləri paylaşdıqlarını ortaya qoyurlar.

Bu yerdə Əli Kərimlinin bu yalanları ilə bağlı sosial şəbəkələrdə böyük təpkilər var. Mərdan Şahıyev adlı istifadəçinin fikirlərini demək kifayətdir: ”AXCP yarandığı gündən Əli Kərimov kimi simasını itirmiş birinə görə o partiyada adam qalmayıb. Xarici havadarlarının və aldığı qrantların hesabatını vermək üçün Əli Kərimov yenə ”qotur salmış dana kimi” qaşınır...Yaddaşın pozulubsa, 1990-cı il hadisələrini görmüş insanlar hələ də yaşayır. İstifadə etdiniz, hakimiyyətə gəldiniz. Az qalmışdı ki, Azərbaycan kimi bir ölkəni darmadağın edəsiniz. Yaxşı ki, Heydər Əliyev hakimiyyətə gəldi, dağıtdığınızı nəinki bərpa etdi, Azərbaycanı bütün dünyaya tanıtdırdı. Heydər Əliyevin qurub yaratdığını davamçısı İlham Əliyev daha da çiçəkləndirir... Mən də bir Qarabağ döyüşçüsü kimi sizə xəbərdarlıq edirəm. Bizim adımızdan bir daha istifadə etsəniz dünyanın hegemon dövlətləri iqtisadi və siyasi tənəzzülə uğradığı bir vaxtda Azərbaycanda stabilliyi qoruyub saxlayan ölkə başçısı, Ali Baş Komandanın sadiq əsgəri kimi məni və mənim kimi minlərlə döyüşçünü qarşında görəcəksən”.

Göründüyü kimi, sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri həmişə olduğu kimi, bu gün də dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Və kimliyindən aslı olmayaraq hər kəs Vətən yolunda şəhid və qazi olanların valideynləri qarşısında baş əyir, fəxr edirik. Fəxr edirik ki, şərəflə qorudunuz Vətəni!, Şərəflə qorudunuz Vətənin qeyrətini, torpağı Vətən etdiniz, Vətəni bütöv etdiniz. Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu torpaq bizə ötürülən əmanətdir. Çünki bu torpaqlar Şəhidlik qanı ilə yoğrulan- Qarabağ Azərbaycandır!

***Rəfiqə Hüseynova***

# Əli Kərimli trolluq etməyi özünə peşə edib

Müxalifətdaxili qarşıdurmalar fonunda, diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, ”Milli Şura” deyilən qondarma qurum dağılmağa yaxın olduğu bir məqamda, Əli Kərimlinin rəhbərlik etdiyi AXCP daxilində yeni hadisələrin baş verməsidir. Xüsusilə də, AXCP Ali Məclisinin toplantısında qalmaqallı qərarların və Ə.Kərimli tərəfindən təyinatların aparılması partiyanın həlli mümkün olmayan problemlərlə üz-üzə qoyub. Artıq Yadigar Sadıqlı, Sahib Kərimli, Aydın Əliyev və bu kimi digər AXCP qurucuları ədalətin bərpası uğrunda savaşa başlayırlar. Sosial şəbəkələrdə paylaşılan etiraz statuslardan belə anlaşılır ki, yaxın vaxtlarda AXCP-də Ə.Kərimlinin sədrlikdən istefası tələbi ilə toplantılar keçirilə bilər.

### Müxalifətin ittiham hədəfinə çevrilməsinin əsas günahkarı Əli Kərimlidir

Tam qətiyyətlə demək olar ki, müxaliflər arasında Ə.Kərimlinin fəaliyyəti daha çox ikrah doğurur və ittiham hədəfi yaradır. Ə.Kərimlinin özünəpərəstişlik üzərində qurduğu ”siyasətinin” əsas qayəsi də budur ki, ”lider”, yaxud ”siyasi rəhbər” olaraq tükənmiş AXCP sədri, hətta neçə illər öncə, hər hansı bir məsələ üzərində oynadığı oyunbazlığını bir müddət sonra təkrarlayır. Misal üçün, bu günlərdə bəlli olub ki, sosial şəbəkələrdəki trolları elə özünün tapşırığı ilə onun bir neçə il əvvəl çıxış etdiyi videosunu paylaşıblar. Daha dəqiq desək, Rusiya telekanallarına istinadən yayılan həmin süjetdə aparıcı Amerika Birləşmiş Ştatlarının Azərbaycana qarşı sərt davranacağından söz açır. Qeyd olunur ki, ABŞ Konqresinin Helsinki Komissiyasının rəyi ilə rəsmi Vaşinqton Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcək, yüksək ranqlı məmurların ölkəyə girişi qadağan olunacaq. Lakin aparılan araşdırma nəticəsində məlum olub ki, ”Milli Şura” və AXCP üzvləri tərəfindən ”böyük şövqlə” yayılan həmin video 3 il əvvəl efirə gedib və ötən müddətdə orada əks olunan iddialar özünü doğrultmayıb. Bu isə, sadəcə, gündəmdə qalmaq üçün növbəti manipulyasiyalardan biridir. Hələ də meydan təfəkküründə qalan Ə.Kərimli Azərbaycan dövlətinin yürütdüyü siyasətə qarşı ən murdar iftiralarını atır, bununla ”mən də varam” deyib, siyasi arenada var-gəl edir. Özünü ”birləşmiş müxalifətin lideri” kimi ictimai rəyə zorla sırımağa çalışan Ə.Kərimli elə sanır ki, o, həqiqətən də, düşərgədə ”bir nömrə”dir. Ancaq reallıqda müxalifət düşərgəsində özünün qohum-əqrəbasından ibarət olan sıravi müxalifətçilərdən özgə onu qəbul edən və yuxarı başda oturmasını istəyən yoxdur. Bu isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, Ə.Kərimli və başına topladığı bitmiş siyasətçilər cəmiyyət tərəfindən rədd edilirlər. Həm də maraqlı məqam ondan ibarətdir ki, zamanında Ə.Kərimlinin yanında olub, onunla eyni mövqedən çıxış edənlər və AXCP-nin maraqları üçün çalışanlar sonradan ondan yollarını ayırmalı oldular. Çünki aydın şəkildə dərk edib gördülər ki, Ə.Kərimli satqın və xəyanət yolu tutub.



### Ə.Kərimli satqın və xəyanətkar əməllərini lideri, mərhum AXCP sədri Əbülfəz Elçibəyə qarşı da həyata keçirmişdi

Ə.Kərimli satqın və xəyanətkar əməllərini lideri, mərhum AXCP sədri Əbülfəz Elçibəyə qarşı da həyata keçirmişdi. Hətta deyilənlərə, daha doğrusu, Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyevin dediyinə görə, Əbülfəz Elçibəyi Ə.Kərimli zəhərləyib. Bir sözlə, Ə.Kərimli zatıqırıq, dostluq etdiyi, eyni siyasi məfkurəni bölüşdüyü insanlara xəyanət edən şəxsdir. Məhz Ə.Kərimlinin satqın və xəyanətkar olması səbəbindən, Əbülfəz Elçibəyin vəfatından sonra AXCP-də böyük yarpaq tökümü, ardından da, ümumiyyətlə, ağlı başında olanların oradan uzaqlaşması prosesi başladı. Bu gün də AXCP-dən istefalar baş verməkdədir. Qısası, Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP bu gün suyu qurumuş dəyirman kimidir. Vəziyyətin bu cür davam edəcəyi təqdirdə, AXCP tamailə sıradan çıxmış olacaq. Çünki Ə.Kərimlinin yarıtmaz siyasi səhvlərini təkrarlaması bunu deməyə əsas verir.

***İ.ƏLİYEV***

# 90-60-90...

**Bundan əvvəl təndir vardı, qadınlar təndir başında bir aylıq söhbət, qeybət edərdilər. İndi də ki, ta təndir-filan yoxdur, sosial şəbəkələr var, burada qadın qrupları var ki, onlar da heç təndir başından geri qalmır. Bu gün həmin qruplardan birinin söhbəti:**

Bir qadın deyir: ay qızlar, xəbəriniz var, sentyabrın 9-u Beynəlxalq Gözəllik Günüdür?

O biri qadın: ay qız, gözəllik qalıb məgər indi. İllər əvvəl gözəllik 90-60-90 idi. Görəsən indi bu ölçülərdən əsər-əlamət qalıb?

Başqa bir qadın: indi əlində çıraq günün günorta çağında da bir qadın tapa bilməzsən ki, 90-60-90 ola. Əvvəllər gözəllik müsabiqələri keçirilirdi, yalnız 90-60-90-lar bu müsabiqələrdə iştirak edə bilərdilər. Mən o müsabiqələri həmişə izləyirdim. Sən öl, qızlar gəlirdi o müsabiqələrə ki, elə bil ilan boğazından çıxmışdılar.

O biri qadın: hə, indi ta sən deyən qızlar yoxdur ki, o müsabiqələrə gələ də. Dövran dəyişilib ey. İndi qızlar 190-60-190 olub.

Elə bunu deyən kimi qrupda bir canlanma yaranır. Bu sözlərə "like" yağış kimi tökülür.

Deyirəm görən, bu "like"lər nə üçün yağışdan sonrakı göbələklərə bənzədi? Elə bu məqamda xanımlar başlayır izaha, mən də bir kənardan bunlara qulaq verirəm.



Qadınlardan biri: ay bacılar, nəyə gülürsünüz, indi bir nəfər 90-60-90 qadın var? Ya qup-quru quruyublar, ya da yuxarı 190, bel 60, aşağı hissə isə yenə 190-dır.

O biri qadın: ay qızlar, ta müsabiqədəkilər də 90-60-90-dan vaz keçib ey, deyirlər ki, kim gəlir, gəlsin, ta ki görkəmi gözəl görünsün.

Başqa bir qadın: nə etsinlər ki, onda gərək ta gözəllik müsabiqəsi keçirilməsin. Bilirsiniz, onlar o müsabiqələrdən nə qədər pul götürürlər? Görürlər ki, 90-60-90 yoxdur, deyirlər, eybsiz, 190-60-190-lar gəlsin. Biz də burada görək hansı kosmetoloq həkimin işi daha keyfiyyətlidir.

O biri qadın: yaxşı, 190-ları başa düşdük, axı 60 elə yerindədir, bu nə üçün dəyişmir bəs?

Qadınlardan biri: başına xeyir, ay qız, bəs bilmirsən ki, camaat gedib qabırğalarından bir-ikisini çıxartdırır ki, 190-ların arası incə olsun? Buna görə də 60 qalır yerində də...

O biri qadın: ay qızlar, bilmirsiniz, bu müsabiqələrdə dodaq məsələsinə necə baxırlar?

Qadınlardan biri: ay qız, dodaqlardan danışma ey... O günü küçədə bir qadınla rastlaşdım. Təsadüfən başımı qaldırıb üzünə baxanda, "Bismillahir rəhmanir rəhim",- dedim. Elə xoflandım ki, bədənim əsməyə başladı. Qadının dodaqları üzünün dörddə iki hissəsini əhatə edirdi, and olsun Allaha. Bir anlığa düşündüm ki, İlahi, yazıq, buna nə olub belə, görəsən? Arı vurub, cücü sancıb? Lakin daha bir nəzər salanda, bu dodaqlara dolğu vurulduğunu açıqca anladım. Dedim, yox, burada iki variant var: ya qadın, dəbdir,- deyib, özü istəyib dodaqlarını bu günə saldırıb, ya da həkimi zay həkimlərdən olub. Qızlar, vallah, qadın dodaqlarını yığıb-yığışdıra bilmirdi. Nağıllardakı ifritələrin təsviri kimi, üst göyü, alt yeri süpürürdü.

O biri qadın: ay qız, nə həkim-filan, özləri belə istəyir ey... Hələ o gün küçədə yanımdan bir maşın keçirdi, dönüb baxanda, dəli oldum. Maşının pəncərəsindən dodaqdan savayı heç nə görünmürdü.

Başqa bir qadın: ay qızlar, hələ mənim qonşumun qaşlarını görəsiniz ey. Vallah mənə inanmayacaqsınız, lakin bunun qaşları ta kamandan da o yana dartılıb ey. Adam baxanda vahimə basır. Elə bil qaşlar bütün üzü dartıb özünə tərəf, ox kimi. Yazıq nə danışa bilir, nə də gülə. Elə bil müqəvvadır.

O biri qadın: ay qız, bəs sizin mənim qonşumdan xəbəriniz ola. Bunun saçı qısa idi, çiyinlərində dururdu. Bir gün gördük ki, düz belinədək uzandı. Dedim, bismillahir, bu nə etdi ki, saçları belə sürətlə uzandı? Sonra bir gün liftdə qarşılaşdıq, baxam ki, nə? Bunun saçlarının dibi doludur sancaq-suncaqla. Sən demə, gedib, ərinməyib, o boyda vaxt sərf edib, özünə saç qoydurub. Onu da yığıb yuxarı, saxta saç olması da altdan görünür.

O biri qadın: ay qız, sizə nə var, guya siz heç nə etdirməmisiniz?

Digər qadın: ay bacı, birinci bunları etdirməyə kalan pul lazımdır. İkincisi də nəyimizə lazımdır axı, Allah verib də verdiyini.

Söhbəti açan qadın: düz deyirsən, vallah, nəyimizə gərəkdir ki?.. Gözəllik müsabiqəsinə getməyəcəyik, podyuma çıxmayacağıq. Qoy bunu o qadınlar etsin ki, onlara lazımdır.

O biri qadın: ay qızlar, eşitmişiniz, deyirlər ki, bu 190-60-190-lar var ey, onların bir azdan sinələri, yanları çürüyüb tökülür.

Başqa qadın: bizə nə var, çürüdü, çürümədi? Özləri bilər. Bir də, sən narahat olma, onlar müsabiqələrdən qazandıqları pullarla bunun da öhdəsindən gələrlər.

Qadınlardan biri: ay qızlar, səhərdən söhbət edirsiniz, vallah, deyirəm bəlkə zarafatlaşırsınız. Doğrudan 90-60-90-ların əvəzinə 190-60-190-lar gözəllik müsabiqəsində iştirak edə bilərlər?..

Bu sözdən sonra isə qrupa onlarla təbəssüm "smile" yağır...

***Mətanət Məmmədova***

FELYETON

---

# "Etnik-irqi ayrı-seçkilik Fransanın dövlət siyasətinə çevrilib"

*DEPUTAT ŞƏRH ETDİ*





"Müasir dövrdə proseslərin gedişi aydın formada göstərir ki, qlobal miqyasda özünü insan haqları müdafiəçisi kimi təqdim etməyə cəhd göstərən Fransa, əslində, hüquq və azadlıqları istismar edən, insan haqlarının səmərəli müdafiəsinə maneəyə çevrilmiş beynəlxalq subyektdir. Bu tezisin Fransanın sərhədlərindən kənarda, Afrika, Asiya, Mərkəzi və Cənubi Amerikada törətdiyi soyqırım və qətliamlar fonunda, təbii ki, sübuta ehtiyacı yoxdur. Amma dəhşətlisi odur ki, dünyaya hüquq dərsi keçmək iddiasında olan Fransa dövləti öz daxilində də insan haqlarının ən kəskin pozuntularına yol verir". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, xüsusən, etnik-irqi ayrı-seçkilik Fransanın dövlət siyasətinə çevrilib: "Xüsusən, müsəlmanları hədəfə alan bu siyasətin təməlində dövlət səviyyəsində dəstəklənən və bir çox hallarda açıq cinayətlərdə ehtiva olunan nifrət və seqreqasiya dayanır. Ən dəhşətlisi isə budur ki, daha effektli və daha dərin yaralar açmaq üçün Fransa hakimiyyət orqanları müsəlman qadınları xüsusilə hədəfə alır. Üstəlik, qadınlara münasibətdə xüsusi ayrı-seçkilik, mənəviyyat və inancla bağlı olan amillərə təcavüz qanunvericilik səviyyəsində rəsmiləşdirilməklə Paris müsəlmanlara nifrətini açıq formada bəyan edir".

Deputat sözlərinə belə davam edib: "Fransa BMT-nin idarəçilərindən biri, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. BMT-nin əsas məqsədlərindən biri isə nifrət və bölünmə yaradan faktorlar olan irqi ayrı-seçkilik və seqreqasiyadan azad bir dünyanın qurulmasıdır. İrqi ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında BMT Konvensiyasında ifadə olunur ki, ayrı-seçkilik, üstünlük və ya nifrətə əsaslanan hökumət siyasətləri əsas insan hüquqlarını pozur, millətlər arasında dostluq və sülh münasibətlərinə və xalqlar arasında əməkdaşlığ, habelə beynəlxalq sülh və təhlükəsizliyə mane olur. Bu gün BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Fransa nəinki Təşkilatın məqsədlərinə xidmət etmir, üstəlik, istər öz daxilində, istər təsir dairəsində saxladığı ölkələrdə, habelə Cənubi Qafqaz kimi təsir dairəsinə salmağı xəyal etdiyi ölkələrdə saxta, əxlaqi cəhətdən çirkin, sosial cəhətdən ədalətsiz və təhlükəli üsul və metodlara söykənən təhlükəli siyasət yürütməklə bəşəri dəyərlərə zərbə vurur. Təbii ki, belə bir dövlətin BMT Təhlükəsizlik Şurasında təmsil olunması yolverilməzdir, əks halda BMT onsuz da azalmaqda olan nüfuz və təsirini tamamilə itirəcək".

***Ayşən Vəli***

---

# Süni intellekt kişilərdə sonsuzluğu aradan qaldırır

*FAKTLAR*

***Süni intellekt kişilərin 7 faizinə təsir edən sonsuzluğun müalicəsində mühüm rol oynaya bilər. SİA xarici mətbuata istinadən xəbər verir ki, həkim Steven Vasilesku, komandası ilə birlikdə hazırladığı süni intellekt proqramının ciddi sonsuzluq problemi olan kişilərdən alınan nümunələrdə sperma aşkarlanmasını 1000 dəfə sürətləndirə biləcəyini söyləyib. Biotibbi mühəndis olan Vasilesku qeyd edib ki, insan gözü hələ nəyə baxdığını anlamadan süni intellekt istifadə oluna biləcək spermanı aşkar edə bilər.***



"SpermSearch" adlandırdıqları süni intellekt, sonsuz kişilərin yüzdə 10-nu təşkil edən və xayasında heç bir sperma olmayan kişilərin uşaq sahibi olmasını asanlaşdırma potensialına malikdir. Bu hallarda adətən xayanın bir hissəsi cərrahi yolla çıxarılır, laboratoriyaya aparılır və embrioloqlar mikroskopla bu toxumada sperma axtarırlar. Əgər sperma tapsalar, götürülür və yumurtaya vurulur.



Həkim Vasilesku deyir ki, bu prosesdə birdən çox adam 6-7 saat işləməlidir: "Çünki yorğunluq səbəbindən səhv diaqnozlar qoyula bilər. Bir embrioloq mikroskopun içinə baxdıqda çoxlu hüceyrələrdən ibarət içində qan və toxumalar olan bir quruluş görür. Milyonlarla hüceyrə arasında yalnız 10 sperma ola bilər. Bu, samanlıqda iynə axtarmaq kimidir. "SpermSearch" isə nümunələrin fotoşəkillərini araşdıraraq saniyələr ərzində sağlam sperma müəyyən edə bilir. Bunun üçün Vasilesku süni intellektə toxumalar arasında tapılan spermanın minlərlə fotoşəkili ilə təlim keçib. Süni intellekt embrioloqlara kömək etmək məqsədi daşıyır, onların işini əlindən almaq deyil.

***Ləman Sərraf***

ŞƏRH+AKTUAL

# "Kreml desantı" Vardanyan dinc dayanmır...

*"Biz bu gün Qarabağın ermənilərin əlində qalması üçün mübarizə aparanların hamısını dəstəkləyirik"*

**Qeyd edək ki, erməni mediasının yazdığına görə, bu sözləri Qarabağda rus sülhməramlılarının nəzarət etdiyi ərazisində qalan "Kremlin desantı" ayamalı Ruben Vardanyan deyib. Hazırda Rusiya ilə münasibətləri ən gərgin vəziyyətə çatan Vardanyanın Ermənistandakı iqtidara qarşı mübarizəyə başlaması da sirr deyil. Məhz bu mənada, Rusiyanın məlum dairələri tərəfindən aldığı sifarişləri əsasında Qarabağ kartını əsas "kozır" kimi istifadə edən separatçı milyarder paralel olaraq Qarabağda yaşayan və inteqrasiya olmağa razı olan erməni əsilli Azərbaycan vətəndaşlarını da hədəfə almağı unutmayıb.**



Vardanyan: "O qüvvələr ki, başqa yol təklif edir..."

"Qarabağın Azərbaycanın bir hissəsi ola bilməyəcəyini qəbul edən bütün qüvvələr bizim üçün məqbuldur. Biz bu qüvvələri birləşdirib dünyanın hər yerindən ermənilərin dəstəyini qazanmaq məqsədi güdürük. Bunun üçün Ermənistanda da platforma yaradılıb, onlar başqa ölkələrdə də yaradılacaq", - deyən Vardanyan hərəsini bu cür ifadə edib: "O qüvvələr ki, başqa yol təklif edir, biz onlarla əməkdaşlıq edə bilmərik. Onlar təhlükəli rol oynayırlar", - deyə Vardanyan bildirib. Beləliklə o, inteqrasiya marağında olan erməniləri cəzalandırmaqla hədələyib.

### Paşinyan Ermənistana gor qazır

Lakin son günlər istər Qarabağda, istərsə də Ermənistanla şərti sərhəddə vəziyyətin gərginləşməsinə rəğmən, Nikol Paşinyanın da dinc dayanmadığının şahidləri olmaqdayıq. Hakimiyyətini Qarabağ klanından qorumaq üçün ölkəsini müharibə həddinə çatdıran erməni baş nazir sanki 2020-ci ilin sentyabr situasiyasını yenidən yaratmağa başlayıb. Bu məsələdə Fransanın və digər bir sıra Qərbi Avropa ölkələrinin, həmçinin, İranın da canfəşanlıq etdiyini deyə bilərik.

### Avetik İşxanyan: "Paşinyan öz məqsədinə nail olmaq üçün insan həyatını qurban verir"

"2020-ci ildə onun yaratdığı müharibənin məqsədi Qarabağdan xilas olmaq idisə, indi törədəcəyi müharibənin məqsədi KTMT-dən çıxmağa hesablanıb".







Bunu isə erməni ekspert Avetik İşxanyan sərhəddə baş verən gərginlik və ABŞ-Ermənistan hərbi təlimləri haqqında danışarkən deyib. Onun sözlərinə görə, 2022-ci ilin sentyabrında ikigünlük (13-14 sentyabr) müharibə anti-Rusiya mövqeyini gücləndirmək və KTMT-dən çıxmağa hesablanmışdı: "Paşinyan öz məqsədinə nail olmaq üçün insan həyatını qurban verir, 2020-ci ildə də bunu etdi, 2022-ci ildə də. İndi də eyni şeylər təkrarlanır. ABŞ-Ermənistan təlimləri də, məhz anti-Rusiya prosesinin tərkib hissəsidir".

Erməni ekspert son günlər İrəvan-Moskva münasibətlərində baş verən gərginliyə diqqət çəkib. Qeyd edib ki, hər şey hazır ssenari üzrə davam edir və bu ssenari Ermənistana yaxşı heç nə vəd etmir. Daha real ifadə etsək, Paşinyan Ermənistana gor qazır.

### Ədalət Verdiyev: "Proses artan istiqamətdə hərbi və siyasi təxribatlarla müşayiət olunur"

Son zamanlar, xüsusilə, geridə qoyduğumuz son həftə boyunca Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməsi və orduya uzunmüddətli fortifikasiya qurğuların qurulması, səngərlərin qazılması ilə bağlı göstərişlər verilməsi də digər bir sıra məsələləri önə çıxarır.

Hərbi ekspert Ədalət Verdiyev mətbuata açıqlamasında bildirib ki, artıq geriyə yol yoxdur və Ermənistan çox ciddi cəza alacaq: "Eyni zamanda, qarşı tərəf ölkəmizin ərazi bütövlüyünü təhdid edərək humanitar yardım məzhəkəsini davam etdirir. Bununla yanaşı, Ermənistan Qarabağdakı separatçıların əli ilə radioelektron vasitələrdən istifadə yoluyla həm Azərbaycanın, həm də ölkəmizə gələn və hava sahəmizdən keçən xarici ölkələrin mülki aviasiya təyyarələrinə qarşı hücumlar edir. Rəsmi İrəvan son 30 ildə törətdiyi vəhşiliklərdən utanmaq yerinə, son günlərdə törətdiyi təxribatlarda da Bakını günahlandırmağa çalışır. Proses artan istiqamətdə hərbi və siyasi təxribatlarla müşayiət olunur. Azərbaycanın da səbrinin bir həddi var, o sonsuz deyil. Ermənistan isə



dövlətimizin səbir kasasını daşırmaq üçün həddindən ziyadə çalışır və özü "Dəmir yumruğa" "gəl-gəl" deyir. Baş verənlər onu göstərir ki, artıq geriyə demək olar ki, yol qalmır. Əgər Ermənistan qısa müddət ərzində öz pozucu fəaliyyətində korrektələr etməsə, ölkəmizə qarşı gərginliyi artıran addımlara son qoymasa, çox ciddi şəkildə cəzalandırılacaq".

***Afət Tahirqızı***

# Un məmulatlarına kimyəvi maddələr əlavə edilir?

**“Təəssüf ki, günümüzdə un və un məmulatları ilə bağlı əsas problem məmulatın qida dəyərindən çox, istehsalının sürətli, praktik və asan olmasına yönəlməkdən ibarətdir”. Bu sözləri SİA-ya açıqlamasında Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.**

Onun sözlərinə görə, un hazırlanarkən bir yandan rafinə edilir: ”Digər yandan da bəzi qatqı maddələri əlavə edilir. Bununla da kifayətlənməyərək un sobaya girdikdən sonra çörək hazırlanması əsnasında da bir çox qatqı maddəsi qatılır. Ağ un və çörəyə istehsalı əsnasında standartı təmin etməyə yönəlik - Hemiselülaz, Proteaz, Oksidazlar, Transqlutaminaz, Lipaz fermentləri, Kalsium karbonat (E170), Natrium Pirosulfit (E223), Askorbin turşusu (E300), Kalsium Fosfat (E341), Sorbitol (E420), Qliserin (E422), Şəkər və dadlandırıcılar, Quar kitrəsi (E412), Ksantan kitrəsi (E415), Kalsium Xlorid (E509), Mono və diqliserid diasetil tartarik turşusu efirləri (E471-E472), Kalium və natrium difosfat (E450), Natrium karbonat (E500) (qabardıcı), Sistein (E920), Benzoil peroksid (E928), Kalium bromat (E924) kimi müxtəlif kimyəvi qatqı maddələri ilə yanaşı növə görə dad verici, ləzzət artırıcı, rəngləndirici qatqı maddələri də əlavə edilir.

Market rəflərində 500 qramlıq bir çörək etiketində ”buğda unu, şəkər, soya unu, emilqator (E472e), askorbin turşusu (E300), fungal alfa amilaz, kalsium karbonat (E170)” yazır. Qatqı maddəsinin sözdə faydaları isə bu şəkildə yazılır: ”Xəmirin bayatlamasını gecikdirərək rəf ömrünü uzadır, çörəyin həcmini böyüdür və görünüşünü gözəlləşdirir.”

Asim Vəliyev sözlərinə belə davam edib: ”Həşəratlar, çox istifadə edilən ağ unu sevmirlər və yemirlər. Tam buğda ununu yeyirlər və tam buğda unu rütubəti, günəşi sevmir. Bu səbəbdən günəşdən qorunmalı və rütubətli ortamlarda saxlanmamalıdır. Sənaye üsulu unlar illərlə xarab olmadan qala bilir. Çünki qoruyucu qatqı maddələri ehtiva edir. Qatqı maddələri çörəyin növünə görə dəyişir. Məsələn, qatqısız kənd çörəyi deyə satılan çörəklərdə ”teigsauer” adlı paket qatqı maddəsi qrupu istifadə edilir. Günümüzdə çörəkçilərdə istehsal edilən çörəyə buğda unu, içməli su və duzla yanaşı aşağıdakı qatqı maddələri əlavə edilir:

Maya: Saccharomyces cerevisiae. Maya, fars mənşəlidir. Latın dilində ”şəkər göbələyi” mənasını daşıyan ”Saccharomyces cerevisiae” sözləri ilə ifadə edilir. Sənaye üsulu kimyəvi maya göbələkləri, mayalanmanı təmin etmək üçün çörək hazırlanmasında da istifadə edilir.

Ferment: Fungal hemiselülaz, fungal alfa amilaz, transglutaminaz. Xəmirin asan emalını, çörəyin daha yumuşaq, incə qabıq qurluşuna malik olmasını, xəmirin rahat əmələ gəlməsini təmin edir, su və qaz tutma qabiliyyətini artırır. Çörəyi həcmli və formada göstərir. Qlüten elastikliyinin artmasına kömək edir. Dərin dondurulmuş xəmir məhsulları ilə meyvə suyu və digər içkilərin istehsalında da istifadə edilir. Məhsulların rəf ömrünü artırarkən, insanın ömrünü qısaldır.

Antioksidant: Askorbin turşusu (E300). Lukozun bakteriyal fermentasiyası ilə sintez olunur və bunu kimyəvi oksidasiya izləyir. Askorbin turşusu əslində C vitaminidir. Ancaq, E300 olaraq etiketlənən askorbin turşusu, vitamin əlavəsi olaraq əlavə edilə bilməz/qəbul edilməz.

Emulqator: Unlu məmullarda, çörəkdə, yağ turşularının monoqliserid və diqliseridləri (E471), Diacetyl tartarik turşusu efirləri (E472e), Natrium stearol laktat (E481) və Kalsium stearol laktat (E482). E471, qliserol və təbii yağ turşularından istehsal edilən sintetik yağlardır. Bitki və heyvan mənşəlidir. Heyvan mənşəli olanlar qaramal, donuz və ya süd yağlarından əldə edilərkən, bitki mənşəli olanlar isə soya, raps və ya qarğıdalı kimi GMO-lu bitkilərdən əldə edilir. Ancaq bu məhsul, ümumiyyətlə fərqli məhsulların qarışığından meydana gəlir. E472a-f seriyası isə qliserol, təbii yağ turşuları və sintetik yağ efirləridir. Həm bitki, həm də



**MÜTƏXƏSSİS AÇIQLADI**







heyvan mənşəli yağ turşuları istifadə edilə bilir. Qida elmi mövzusunda seçilən bir universitet olan Wageningen Universitetinin Qida və Qida Texnologiyası Fakultəsi tərəfindən hazırlanan saytda unlu məmullara qatılan E471 və E472 törəmələri üçün ”əksəriyyətlə bitki mənşəli yağlar istifadə edilməsinə baxmayaraq, donuz yağı kimi heyvan mənşəli yağların istifadə olunması istisna edilmir. Bu səbəbdən ətlə yanaşı süd və süd məhsulları da yeməyən vegeterianlar, müsəlmanlar və yəhudilər bu məhsullardan uzaq durmalıdır. Ancaq istehsalçılar yağ turşularının mənşəyi barədə ətraflı məlumat verə bilər. Kimyəvi olaraq bitki və ya heyvan mənşəli yağ turşuları eynidir” - xəbərdarlığı yer alır.

Çörəyin hazırlanması emulqator olmadan da mümkündür. Fəqət nəticə olaraq quru, həcmi az və asan bayatlayan bir çörək əldə edilir. Xəmirə əlavə olunan 0,5% miqdarda emulqator, çörəkdə həcmin artması, yumuşaq bir çörək iç qurluşunun meydana gəlməsini və rəf ömrünün uzanmasını təmin etməyə yetərlidir. Çörəkdə 2 növ emulqator istifadə edilir: Xəmir sərtləşdiricilər (məsələn diasetiltartarik turşu efirləri -E 472e- və natrium ya da kalsium laktilatlar -E 481, E 482-) və xəmir yumuşaldıcılar (məsələn yağ turşularının monoqliserid və diqliseridləri - E 471-). Xəmir sərtləşdiricilər xəmiri daha dözümlü edib, çörəyin daha düzgün bir qurluş və həcmdə olmasını təmin edir. Xəmir yumuşaldıcılar isə çörəyin içinin yumuşaq olmasını və uzun bir rəf ömrünün əldə edilməsini təmin edir.

Yağ: Bitki mənşəli maye yağ növləri. Çörək hazılanmasında ingiliscə qısaldıcı mənasında ”shortening” (yağ) olaraq ifadə edilən, dünya qida ədəbiyyatında da bu adla keçən ”un məmulatları yağları” istifadə edilir. Bu yağlara shortening deyilməsinin səbəbi, buğda unundan xəmir hazırlanması əsnasında əmələ gələn uzun qlüten liflərinə, qısa quruluş verməleridir. Bunlar da bir qism tullantı yağlardan ibarətdir. Ən ucuzu və geniş yayılanı, ”donuz iç yağı və quyruq yağı” (lard) olanıdır. ”Qatı shortening”lər qısa olaraq ”bitki mənşəli shortening”lər də, hidrogenlə doyurulmuş şəkildə qarışdırıldığına görə sağlamlığa zərərli trans yağ ehtiva edir. Çörək satışları əksəriyyətlə etiketsiz olduğu üçün alarkən heç kim ən çox istifadə edilən qida maddəsinin tərkibini öyrənə bilmir! Bir çox qaynaq, shortening adlı bu yağın donuzdan əldə edildiyini sübut edir. Ancaq, bitki mənşəli olma ehtimalı da göz ardı edilmir. Bitki mənşəli olanları isə GMO-lu pambıq yağından əldə edilir. Uzaq şərqdə isə palmadan əldə edilə bilir. TÜBİTAK-a bağlı MAM-ın (Marmara Araşdırma Mərkəzi) saytında bu yazı qeyd olunub: ”Shortening tipi yağlar daha çox keks, tort, qurabiyə və digər şirniyyat məhsullarının keyfiyyətini artırmaq məqsədi ilə istifadə edilir. Bundan başqa ”shortening”lərin qızartma yağı olaraq da istifadə edilir. Ölkəmizdə marqarin istehsalına bənzər şəkildə shortening istehsalı da, qismən hidrogenizasiya prosesi ilə həyata keçirilir. Trans yağ turşularının əmələ gəlməsi və bunların riskləri yenə qarşımıza çıxır. Çörək, qutab, paxlava və şirniyyat məhsullarının istehsalı, ölkəmizdə geniş yayılıb. Ancaq bu növ istehsalda, fiziki və kimyəvi özəllikləri təmin etməsi baxımından ”shortening” istifadəsi lazımkən, marqarin istifadə edilir.” Shortening donuzdan əldə edilsə də, istehsalçı və ya satıcılar, alıcı və ya istehlakçının etiraz ilə qarşılaşmamaq üçün bitki mənşəli olduğunu bildirirlər. İstər donuzdan, istərsə bitkilərdən olsun, hər halda problemli bir məhsulla qarşı qarşıyayıq.

Nişasta: Qarğıdalı nişastası, buğda nişastası. Sənaye üsulu qarğıdalı istehsalının GMO-lu olması və qarğıdalı mövzusunda Kargillin dünya istehsalında ən böyük paya sahib olması, nişastaların da GMO-lu olma ehtimalını ortaya çıxarır. Qaldı ki, Kargill, GMO-nun yayılması üçün böyük cəhdlər sərf edən, bu uğurda Ümumdünya Ticarət Təşkilatının qurulmasına öncülük edən bir qrupdur.

Un əlavəsi: Soya unu, qovrulmuş malt unu və malt ekstratı. Soya, bütünlüklə GMO-lu bir məhsul olduğuna görə soya qatqılı bir məhsul istehlak siyahısından çıxarılmalıdır.

Unlu məmullarda supreks istifadəsi. Çörək başda olmaq üzərə makaron, qurabiyə, biskvit və vafli kimi un məmulatlatında son illərdə çox istifadə edilən digər qatqı maddəsi də ”suprex” adlı məhsuldur. Supreks -



qarğıdalı, buğda, düyü, arpa və bu kimi dənəli və lifli bitkilərin pasterizə prossesindən keçirilərək əldə edilir. Un məmulatları və bir çox emal olunmuş məhsulda istifadə edilir. Saxlayıcı xüsusiyyətinə görə məhsullara qatılan suyu saxlayaraq, həcmini və ağırlığını artırır. Bu maddə qatılan məhsul gec bayatlayır və bişmə müddəti qısalır. Daha çox qarğıdalıdan əldə edildiyi üçün supreks də GMO-lu bir məhsuldur”.

***Ayşən Vəli***

## Kişilərin qadınlardan tez ölməsinin səbəbi

# BƏLLİ OLDU

*SOSİOLOQ AYDINLIQ GƏTİRDİ*



Sosioloq sözlərinə davam edərək bildirib ki, ölkəni tərk edənlərin sayı da bu statistikaya təsir edir: ”Bundan əlavə, qadınların psixologiyasında belə bir şey var ki, onlar cəmiyyətdə baş verən hadisələrə tez qıcıqlanmır, əsəbləşmirlər. Kişilər isə iqtisadi, siyasi və başqa bir sıra vəziyyətdən asılı olaraq güclü reaksiya verirlər. Kişilərin qadınlardan daha tez ölməsinə təsir göstərən digər bir faktor da yeməkdir. Kişilərin alkoloq, siqaret və sairədən daha çox istifadə etməsi onların ömrünün qısalmağında mühüm rol oynayır. Beləliklə, bu məsələdə bir deyil, bir neçə amildən danışmaq lazımdır”.

***Ləman Sərraf***

# İş yerində hansı effektivdir: cəza, yoxsa mükafat?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*









Dövrümüzün bəlkə də ən çox yayılmış problemlərindən biri də işə başlama saatı və davamiyyət ilə bağlıdır. İş saatı ilə bağlı ciddi qaydalar olan müəssisələrdə bu həmişə problemli və mübahisəli məsələ olub. Bəzi rəhbərlər cəza sistemi tətbiq edir, bəzi rəhbərlər isə həvəsləndirmə, təşviq üsullarından istifadə edir. Ümumiyyətlə, əməyin mühafizəsi tədbirləri görülərkən mükafat və cəza üsulu ən çox üstünlük verilən üsullardan biridir.

Məşhur bir deyimdə olduğu kimi, nəticələr həmişə davranışı müəyyən edir. Bir davranışın baş verməsini istəyirsinizsə, onu mükafatlandırın, arzuolunmaz bir davranışı aradan qaldırmaq istəyirsinizsə, onu cəzalandırın. Heyvanların təlimi üçün keçərli olan bu sistem uzun illərdir insanlar üçün də istifadə olunur. Biznes sahəsindəki bir çox rəhbər və menecer hələ də hesab edir ki, performansı və səmərəliliyi artırmaq və hətta mükəmməlliyi təşviq etmək üçün ən təsirli yol yaxşı işçiləri mükafatlandırmaq və pis işləyənləri cəzalandırmaqdır.

”Mükafat varsa, cəza da olmalıdır”, - deyə ifadə edilən bu sistem doğrudurmu? Təcrübəyə görə, bu yanaşma bəzən uğurlu olduğu halda, bəzən də əks nəticə verir. Qəbul etmək lazımdır ki, mükafat təşviq yaradır, cəza imtina. Cəza, arzuolunmaz davranışı aradan qaldırmaq üçün bəzən faydalı ola bilər, bəzən isə yox. Eləcə də mükafatladırma sistemi həmişə təşviqə yönəltmir.

### Mükafat və ya cəza sistemi ilə nəticə əldə edilə bilərmi?

İşçilərin məhsuldarlığı iş yerləri üçün çox vacibdir. Məhsuldarlığı böyük dərəcədə artırmaq və fəaliyyəti gücləndirmək üçün işçilərin işə olan məsuliyyətini gücləndirmək lazımdır. Buna motivasiya, tərif, təbrik, bonus və maaş artımı kimi maddi və ya mənəvi mükafat sistemləri ilə nail olmaq mümkündür. Bəs, iş yeri rəhbərlərinin tətbiq edə biləcəyi mükafat və cəza sistemləri necə qurulmalıdır?

İşçinin gördüyü işə görə işə vaxtında gəlmə, vaxtında getmə, davamiyyət səviyyəsinə görə mükafat və ya cəza almasının əməyin mühafizəsi təcrübəsində faydalı olduğu müşahidə olunur. Bəzi yerlərdə mükafatlandırma üsuluna, bəzi yerlərdə isə cəza üsuluna üstünlük verilir. Cərimə kimi işçilərin əmək haqlarından tutulmalar səbəbləri göstərilməklə dərhal işçiyə bildirilməlidir. Beynəlxalq normalara görə bu üsulla işçilərin əməkhaqqından tutulmalar, bir ayda iki günlük qazancından, əməkhaqqı hissə-hissə və ya görülən işin miqdarına görə ödənildikdə isə işçinin iki günlük qazancından çox ola bilməz.

Nəzarət mexanizmi olan mükafat və cəza sistemi, əslində, məqsəd deyil, işçiləri itaətdə saxlamaq üçün bir vasitədir. Öz məsuliyyəti olan, zamanında işə gələn bir işçi üçün mükafat ödəmək onu itaətə alışdırmaq deməkdir. O bundan sonra öz məsuliyyəti üçün yox, mükafatı üçün işə vaxtında gələcək. Eyni zamanda, işə gecikdiyi üçün cəzalandırılan işçinin motivasiyası daha da düşür və növbəti gün işə gecikməsi üçün bəhanə yaranır. Mükafat qazanmaq üçün cəhdlər və ya cəzadan qaçmaq cəhdlərinin yaratdığı stress və narahatlıq işçinin işə deyil, mükafat və cəzaya fokuslanması deməkdir, bu vəziyyətdə iş faydalılığı aşağı düşəcək.

### Yaradıcı insanlara cəza-mükafat sistemi tətbiq etmək doğrudurmu?

Yaradıcılıq tələb edən peşələrdə iş faydalılığına görə mükafat təyin etmək bir çox hallarda əks nətcə verir və performansı aşağı salır. Çünki mükafata fokuslanmaq diqqəti azaldır və yaradıcılıq qabiliyyətini zəiflədir. Bu mövzuda incəsənət sahəsində maraqlı araşdırma aparılıb. Harvard Biznes Məktəbi cəmiyyətin tanınmış rəssamlarından ibarət münsiflər heyətinə 23 rəssamın çəkdiyi rəsm əsərlərini təqdim edir. Rəsmlərin bəzisi mükafat müqabilində, bəziləri isə sifarişsiz, mükafat almadan rəssamların öz istədiyi formada çəkilib. Rəsm əsərlərində texniki bacarıq və yaradıcılıq qabiliyyəti yoxlanıb.

Nəticəyə görə mükafat müqabilində çəkilmiş rəsm əsərlərinin keyfiyyətinin digərlərinə görə zəif olduğu aşkarlanır. Belə nəticəyə gəlinir ki, yaradıcı insanlarda gördüyü işin müqabilində veriləcək mükafatlar onu görəcəyi işin məğzindən yayındırır.

### Mükafatlandırma sistemi işçini məmnun edirmi?

Araşdırmalara görə, işçilərini mükafatlandıran müəssisələrdə məhsuldarlığın daha yüksək olduğu, işçilərinin isə daha xoşbəxt olduğu məlum olub. Əslində bu, mükafat sisteminin biznes üçün nə qədər vacib olduğunu göstərmək üçün kifayətdir. İşçilərin motivasiyasını artırmaq və məhsuldarlığı artırmaq üçün minnətdarlıq etmək sistemi hər bir müəssisə tərəfindən istifadə edilən ilk mükafatlandırma üsuludur. Bu mükafat sistemi bütün komandanın qarşısında elan şəklində edilə bilər və ya şirkətdə hər kəsin üzv olduğu ortaq bir qrup vasitəsilə yazılı şəkildə edilə bilər. Məsələn, işçilərin və rəhbərliyin olduğu votsap qrupunda iş yeri rəhbəri belə bir paylaşım edilməklə işçinin əməyini qiymətləndirdiyini sübut edə bilər.

İşçilərin məhsuldarlığını artıran ən mühüm amil, şübhəsiz ki, əməkhaqqıdır. İşçilərin uğurlarına görə mükafatlandırılması, əməkhaqqından əlavə ödəniş və ya mükafat şəklində ola bilər. Bu cür maliyyə mükafatı həm işçini daha çox həvəsləndirəcək, həm də digər işçilərin məhsuldarlığının əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edəcək. Bundan əlavə bir yolu da bonus sistemidir ki, bu da müəssisələr üçün mükafat sisteminə daxildir. Maaşından əlavə, işçi öz işinin müəssisəyə gətirdiyi uğura görə hər ay bonus maaşı da ala bilər. Bonus sistemi işçilər üçün ciddi məhsuldarlığı artıran amil ola bilər. İşçilərin mükafatlandırma sistemi üçün müəssisələrin üstünlük verdiyi başqa bir üsul da hədiyyə verməkdir. Yüksək müvəffəqiyyət qazanan işçilərə şirkət adından texnoloji cihaz (telefon, planşet, notebook və s.) verilə bilər.

### Əksini düşünənlər də var

İş yerlərində mükafat və cəza sistemi iş yeri sahibinin ədalətinin də göstəricisidir. Bu prosesin düzgün aparılmaması hətta ciddi işçi və maddi itkilərlə nəticələnə bilər. Bu səbəbdən mükafat və cəza sistemində nəzərə alınmalı xırdalıqlar var. Mükafat və cəza sistemi hamıya bərabər şəkildə tətbiq edilməlidir. İşçilər arasında ayrı-seçkilik sistemin düzgün inkişaf etməsinə mane olar və qısa müddətdə ciddi problemlər yaradar. Eyni xətanı edən iki işçiyə eyni cəza tətbiq edilməli, eyni iş məhsuldarlığı göstərən iki əməkdaşa eyni mükafat təyin edilməlidir.

Mükafat və caza sistemi ya iş mühitində, ya da işçilərin olduğu qrupda digər işçilərə elan edilməlidir. Bu sistem digər işçilərin məhsuldarlığını artırmaqla, mükafat sistemindən faydalanmaq instinktlərini aktivləşdirməklə yanaşı, sistemin etibarlılığına da töhfə verəcək. Habelə, bu gün cəza alan iş yoldaşlarının adının elan edilməsi onların məsuliyyətini də artıracaq.

Lakin bəzi iddialara görə mükafat-cəza təcrübələri işçilərin daxili motivasiyasını həm də azaldır. Təbiidir ki, cəza alan işçi gün boyu əhvalsız, işə faydalı olmayacaq vəziyyətdə olacaq. Lakin mükafat rejimi bunun əksinə olaraq işə həvəsi, faydalılığı, iş keyfiyyətini yüksəldir. Təcrübə də göstərir ki, iş yerlərində cəza üsulundan çox mükafatlandırma üsulundan istifadə edilsə məhsuldarlıq bir o qədər çox olur. Çünki cəza işçinin əsəbi, narahat, narazı, həvəssiz işləməsinə səbəb olduğu halda, mükafat sistemi işçinin daha həvəslə işləməsinə səbəb olar.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
9 sentyabr
2023-cü il

# Dolu hansı fəsadlara səbəb olur?



"Dolu təbiət hadisəsidir. Bu, bütün növ taxıl, məhsul və meyvələrin məhsuldarlığına çox ciddi təsir edir. Məsələn, meyvələrin istər çiçəklənmə, istərsə də sonrakı dövrlərdə bağlara dolu düşməsi məhsuldarlığı kəskin şəkildə azalda bilər və hətta tamamilə məhv edə bilər. Bu, taxıla da aiddir". Bu sözləri SİA-ya açıqlamasında Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov deyib.

Onun sözlərinə görə, dolu taxıl sahələrində və digər dənli bitkilərdə çox sürətlə məhsuldarlığın azalmasına səbəb olur: "Çünki dolu düşən zaman həmin buğda və arpa dənələri öz sünbülündən ayrılıb yerə düşür".

Rövşən Abbasov sözlərinə belə davam edib: "Doluya qarşı həmişə müxtəlif tədbirlər planı işlənilir. Köhnə dövrlərdən dolu dağıdan dəstələr və toplar var idi ki, onlar dolunun dağıdılması üçün nəzərdə tutulurdu. Belə ki, dolunun qarşısını almaq üçün buludlara atəş açılırdı və buludlar dağıdılırdı. Müasir bağlarda isə dolunun qarşısını almaq üçün bir qədər bahalı olsa da, ağacların üzərinə setkalar çəkilir, sonra isə dolu düşən zaman dolu ağacların üzərinə düşmür və məhsuldarlığa heç bir ziyan vurmur.

Ümumiyyətlə, dolu həm də evlərin çardaqlarına və avtomobillərə çox ciddi ziyan vurur. Digər təbiət hadisələri ilə müqayisədə dolu ilə mübarizə aparmaq bir qədər çətindir. Çünki hətta proqnoz verilsə belə məhsul zamanı dolunun yağması çox zaman müdafiə üsullarını mümkünsüz edir".

*Ayşən Vəli*

## "Nar"dan təhsilə dəstək: Ən çox bal toplayan abituriyentlər mükafatlandırıldı

"Nar"2022-2023-cü tədris ilində ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək bal toplayan ilk onabituriyenti dəyərli hədiyyələrlə mükafatlandırıb. Modern.az İnfromasiya Agentliyinin media dəstəyi ilə baş tutan layihə çərçivəsində hər bir tələbəyə"Nar"danqızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib.

Mükafatlandırma tədbirində iştirak edən tanınmış dövlət və media təmsilçiləri ilin ən uğurlu abituriyentlərini təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıblar. "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov da gənclərə gələcək təhsil və karyeralarında uğur diləyərək bildirib:"Böyük əzm və zəhmət hesabına əldə etdiyiniz bu yüksək göstəricinizlə siz gələcək abituriyentlərə nümunə oldunuz. İnanıram ki, ali təhsil




həyatınızda da biliyinizlə tələbə yoldaşlarınıza örnək olacaq və daha da böyük uğurlar qazancaqsınız." Xatırladaq ki, "Nar" artıq yeddi ildir ki,ən yüksək bal toplayan abituriyentləri təhsilə daha da motivasiya etmək üçün onları bir araya gətirərək mükafatlandırma mərasimi təşkil edir. Qeyd edək ki, korporativ sosial məsuliyyət yanaşmasının bir hissəsi kimi təhsilə strateji diqqət "Nar"-ın həm fərdlərə, həm də daha geniş ictimaiyyətə müsbət və davamlı təsir yaratma bağlılığını vurğulayır. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə etmək olar.

**"Nar" haqqında:**

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Messi daha bir rekorda imza atıb



**Argentina millisinin futbolçusu Lionel Messi daha bir rekorda imza atıb. SİA Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) rəsmi saytına istinadən xəbər verir ki, 36 yaşlı hücumçu buna Ekvadora 1:0 hesabı ilə qalib gəldikləri DÇ-2026-nın seçmə mərhələ matçında nail olub.**

Komandasının yeganə qoluna imza atan təcrübəli forvard 6 fərqli dünya çempionatının həm final, həm də seçmə mərhələsində fərqlənən ilk futbolçu kimi tarixə düşüb.

## Yoqa, pilates və fitneslə məşğul olanlara XƏBƏRDARLIQ



Yoqa, pilates və fitnes proqramlarında təcrübəsiz insanlar üçün tövsiyə olunmayan hərəkətlər var. SİA xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Sanator-Kurort Reabilitasiya Mərkəzinin şöbəs müdiri, həkim-fizioterapevt Təranə Məmmədova bildirib. "Təəssüflər olsun ki, əksər hallarda insanlar yalnız kəskin ağrılar zamanı həkimə müraciət edirlər. İdman müalicə növüdür, eyni zamanda idman fərdi şəkildə planlaşdırılmalıdır. Xüsusi ilə dayaq hərəkət sistemi xəstəliklərində (skolioz, kifoz, fəqərələrarası disk yırtığında) daha diqqətli olmağınız tövsiyə olunur" - deyə o, qeyd edib.

## ELAN

Ədliyyə Nazirliyi tərəfindən 29.12.1999-cu ildə Jurnalist Qadınlar Assosiasiyasına verilmiş 1239 saylı Dövlət qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000